- Müəssisənin inkişaf strategiyasında mühasibat siyasətinin aspektlərinin mənasını və konsepsiyasını açmaq;
- Mühasibat siyasətinin xarici mühasibat göstəricilərinə və vergi öhdəliklərinə təsirini əsaslandırmaq;
- Uçot siyasətinin metodoloji aspektinin açıqlanması və formalaşdırılması mexanizmini müəyyənləşdirmək;
- Uçot siyasətinin vergi aspektinin açıqlanması və formalaşdırılması üçün metodoloji metodları müəyyənləşdirmək;

- Uçot siyasətinin texniki və təşkilati cəhətlərinin açıqlanması və formalaşması xüsusiyyətlərini müəyyənləşdirmək;
- Mühasibat siyasətinin idarəetmə aspektinin açıqlanması və formalaşdırılması üçün metodoloji üsulları nəzərdən keçirməli;
- Mühasibat siyasətinin beynəlxalq aspektinin həyata keçirilməsi və formalaşdırılması metodlarını və məzmununu açıqlamaq;
- Uçot siyasətinin analitik aspektinin açıqlanması və formalaşdırılması üçün metodoloji üsullar hazırlamaq;
- Uçot siyasəti auditinin vəzifə və hədəflərini aspektləri kontekstində aydınlaşdırmaq;
- Vergi əməkdaşlarının sertifikatlaşdırılmağa cəlb etmək ;
- Mühasibat siyasətinin auditinin təşkili metodikasını müəyyənləşdirmək;
- Mühasibat siyasətinin auditdə informasiya təminatının tamlığı və keyfiyyətinə təsirini müəyyənləşdirmək;
- mühasibat siyasətinin xarici auditi üçün metodologiya təklif etmək;
- Xarici audit zamanı mühasibat siyasəti üçün sifarişin sınanması prosedurunu optimallaşdırmaq;
- "Müəssisələrin uçot siyasətinin auditi" audit təşkilatı üçün daxili standart hazırlamaq;
- Mühasibat siyasətinin daxili auditi üçün metodologiya təklif etmək.

## NƏTİCƏ

Məqaləmizdə bəhs olunanlardan konkret olaraq aşağıdakı nəticələrə gələ bilərik:

1. Peşəkarlıq dedikdə bir şəxsin peşə fəaliyyətlərini sistematik, səmərəli və etibarlı şəkildə yerinə yetirmə bacarığı başa düşülür.

2. Geniş kütlələrə xitab edən mühasib peşəsi qloballaşan və hər kəs tərəfindən qiymətləndirilən bir işə çevrilmişdir.

3. Araşdırmalar mühasibat işinin ticarət, hökumət və texnoloji dəyişikliklərdən təsirləndiyini ortaya çıxardı.

4. Uzun illər mühasiblər iqtisadiyyatın inkişafında son dərəcə əhəmiyyətli bir rol oynamışlar ki, bu hal hazırkı dövrdə xüsusilə nəzərə çarpır. Standart vəzifələrə əlavə olaraq, onlar tez-tez yalnız mühasiblər deyil, həm də maliyyə analitikləri, iqtisadi məsləhətçilər və ya sadəcə menecerlər rolunu oynayırlar [25].

5. Məqalədə həmçinin bir sıra praktiki məsələlərin şərhi, mühasibatlıqla bağlı hipotezlər, bir sıra məsələlər, onların tənlikləri, həlli qaydaları, cədvəllər öz əksini tapmaqdadır.

Aparılan araşdırmalardan sonra bir sıra təkliflər də təqdim etmək istərdim:

Ölkədə mühasiblərin peşəkarlaşma problemlərinin aradan qaldırılması üçün nə edilməlidir?

Mühasiblərin inkişafı üçün, ilk öncə, qanunvericilik barədə ciddi maarifləndirmə olmalıdır. Daha sonra dövrün tələblərinə cavab verən biliklərə yiyələnmək lazımdır. Şirkətlər mühasiblərin inkişafı üçün cüzi bir hissə də olsa, vəsait ayırmalıdır (misal olaraq, imtahandan keçən zaman

imtahan məbləği kimi mükafat ödəmək) və ən əsası, beynəlxalq sertifikat tələbi qoyulan zaman mühasib aldığı sertifikatı praktiki olaraq tətbiq etməyi bacarmalıdır. Təbii ki, bu da ədalətli yolla sertifikatı əldə etməyi şərtləndirir. Bunun üçün PMS imtahanlarının ciddi və şəffaf formada təşkil edilməsini təmin etmək lazımdır.

Vergi uçotu və mühasibat uçotu ayrılıqda tələb edilməlidir. Bu mövzu mühasibləri hər iki aspektdən natamam şəkildə qalmalarına səbəb olur.

Və əlavə olaraq düşünürəm ki, köhnə sistemlə işləyən mühasiblərin əksəriyyəti yeni hesablar planına keçməlidir. Mühasiblərin problem kimi qəbul etdiyi digər məsələ Məcəllədə tez-tez baş verən dəyişikliklərdir. Bu problem həm mühasiblər üçün mənfi təsir, həm də ölkəyə olan investisiya maraqlarının qarşısını alır.

Sahibkarların əksəriyyəti vergidən yayınma hallarına cəhd edirlər bu da mühasiblərin işlərinə mane olur. Ən əsası şəffaflıq üçün müəssisələrdə və şirkətlərdə zamanla audit yoxlaması keçirilməsi, eyni zamanda hər hansı baş mühasib vəzifəsindən azad ediləndə, həmin şirkətdə audit yoxlaması keçirib sonra yeni işçi cəlb etmək lazımdır. Bu ən əsası mühasiblərin işlərini daha peşəkar aparmağına əsas verəcək. Problemin həlli üçün Qanunvericilikdə boşluqlar və çətin vergi sistemi tamamən aradan qaldırılmalıdır.

Bunlar kimi müxtəlif sıxıntılar həm mühasiblərin tam zamanını mənasız məşğul edir, həm də ki, vergi sisteminə qarşı rəqib, düşmənçilik fikri yaradır. Lakin vergi və mühasiblər birlikdə fəaliyyət göstərsələr, hər ikisi bir birinə dəstək olarsa bu ölkədəki vergi yığımlarını artırmaqla yanaşı "qara mühasibatlığı "azaldar.

Fikrimcə, vergi orqanları ilə problemlərin daha az yaşanması üçün elektron hesabatlar daha da təkmilləşdirilməli və boşluqlar aradan qaldırılmalıdır.

Düşünürəm ki, universitetlərdə bu ixtisasın praktiki keçirilməsi lazımdır ki, gələcək üçün kadr hazırlığında problem olmasın. Vahid dərs vəsaiti olmamağı da burda problem yaradan faktorlardan biridir. Ali məktəblərdə tədris proqramını inkişaf etdirərək bazara uyğun kadr hazırlamaq lazımdır. Azərbaycanda mühasiblərin peşəkarlıq problemlərinin müəyyən edilməsində əsas rol PMS-nin tədbiqi ilə bağlıdır. Bunun üçün də aşağıdakı problemlər həll edilməlidir.

1. PMS imtahanlarının ciddi və şəffaf formada təşkil etmək

2. PMS imtahan proqramlarına "İdarəetmə uçotu" mövzuları əlavə edilməlidir.

3. "Peşəkar Mühasib Təşkilatları"-na üzv olan mühasiblərin etika kodekslərinə riayət etməsi və müəyyən bal sisteminə uyğun qiymətləndirilməsinə ehtiyac vardır. Hətta ciddi ixtisas pozuntuları olan mühasiblərdən PMS sertifikatı alınmalıdır və ya cəza mexanizmləri olmalıdır. Risk qrupuna aid edilmiş şirkətlərlə işləyən mühasiblərin də bənzər cəzaları olmalıdır.

4. PMS sertifikatı olan mühasiblərin 5 illik müddət ərzində də özlərini inkişaf etdirəcək tədbirlər düşünülməlidir.

5. Mühasiblərin də "Həmkarlar ittifaqı" tipli peşə birliklərini olmalıdır.

6. Audit lisenziyası üçün ilkin tələb kimi PMS sertifikatı tələb oluna bilər.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Altıntaş, T. (2011). Uluslararası muhasebe ve Türkiye'de muhasebe hukuku. Sosyal Bilimler Dergisi, 1, 162–174.
2. Banu Başar, A. (2007). "Muhasebe Mesleğinde Başarı İçin İstenilen Bilgi ve Beceriler İle Muhasebe Eğitiminin Değişen Yüzü" Anadolu Üniversitesi.
3. Çoban Çelikdemir, N. (2019). Türkiye'de Muhasebe Standartları Konusunda Yapılan Tezlerin İncelenmesi, İşletme Araştırmaları Dergisi. 11(1), 325-336.
4. Kavut, L., Adiloğlu, B. ve Baloğlu, G. (2017). Türkiye'de iç denetim üzerine yapılan akademik çalışmalar: 2010-2015 analizi. İstanbul: Türkiye İç Denetim Enstitüsü Yayınları.
5. Özulucan A. (2010). "Muhasebe Meslek Mensuplarının Güncel Sorunları, Uygulamada Karşılaştıkları Yetersizlikler Ve Meslek Odalarından Beklentilerinin Unvanları Ve Mesleki Deneyim Süreleri Yönüyle İncelenmesi: Türküye Genelinde Bir Araştırma", Muhasebe Ve Denetime Bakış Dergisi, 42 s.
6. Talu H. (2001). "Muhasebe Meslekinin Para ve Sermaye Piyasalarındaki Yeri ve Önemi " Muhasebe Denetimi Sempozyomu.
7. Коваль Л.С. (2007). Международные стандарты и теория бухгалтерского учёта. Учебно-методическое пособие / Л.С. Коваль М.: Гелиос АРВ.
8. Dyckman, T.R. and Zeff, S.A. Accounting Research: Past, Present, and Future. ABACUS: A Journal of Accounting, Finance and Business Studies, 2015. 51(4), 511-524.

*2021. Volume 5, Number 2* *Pages 117-126*

*UOT: 334.724.6*

# ELEKTRON HÖKUMƏT TƏTBİQLƏRİNİN MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİNİN TƏHLİLİ: AZƏRBAYCAN NÜMUNƏSİNDƏ

**İlknur TANRIVERDİ**
Bakı Mühəndislik Universiteti
itanriverdi@beu.edu.az
Bakı/AZƏRBAYCAN

**XÜLASƏ**

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı, dövlət idarəetməsi baxımından da strukturun innovasiya yönümlü dəyişməsini labüd edir. Xüsusilə də, inkişaf etmişölkələrdə demokratiyanı inkişaf etdirən əsas amillərdən biri, "Elektron hökumət"in formalaşdırılması göstərilir. Tədqiqatda, ölkəmiz timsalında "Elektron hökumət"in yaranması,layihələndirilməsi, inkişafı və bu sahədə ortaya çıxan problemlər araşdırılmışdır. Bununla həm dövlət-vətəndaş münasibətlərinin inkişafı, həm də idarəetməyə göstərəcəyi təsirlərin araşdırılması hədəflənməkdədir.

**Açarsözlər**: innovasiya, elektron hökumət, e-gov, my-gov.

**ANALYSIS OF THE POSITIVE AND DISADVANTAGES OF ELECTRONIC GOVERNMENT APPLICATIONS: IN THE AZERBAIJANI EXAMPLE**

**ABSTRACT**

In modern times, the rapid development of information technology necessitates innovation-oriented changes in the structure of public administration. In particular, the formation of e-government is one of the key factors in the development of democracy in developed countries. The study examines the establishment, project, development and challenges of e-government in our country. It aims to study both the development of state-citizen relations and their impact on governance.

**Keywords:**innovation, e-government, e-gov, my-gov.

**АНАЛИЗ ПОЛОЖИТЕЛЬНЫХ И НЕДОСТАТКОВ ПРИЛОЖЕНИЙ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА: НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ**

В современное время стремительное развитие информационных технологий вызывает необходимость инновационно-ориентированных изменений в структуре государственного управления. В частности, формирование электронного правительства является одним из ключевых факторов развития демократии в развитых странах. В исследовании рассматриваются создание, проектирование, развитие и проблемы электронного правительства в нашей стране. Он направлен на изучение как развития отношений между государством и гражданином, так и их влияния на управление.

**Ключевые слова:** инновации, электронное правительство, электронное правительство, мое правительство.

## GIRIŞ

Dünyanın bir çox inkişaf etmiş ölkələrində tətbiq olunan e-Hökumət modeli, ölkəmiz üçün də hər zaman aktual bir məsələ olmuşdur. Günümüzdə Azərbaycanda e-hökumət xidmətləri, "Elektron hökumət" adlanan layihənin tətbiqləri çərçivəsində həyata keçirilir. "Elektron hökumət" layihəsi ilə dövlət qurumlarının fəaliyyətində səmərəliliyin artırılması, vətəndaş-məmur münasibətlərinin yenidən təşkil edilməsi, daha səmərəli və faydalı dövlət xidmətlərinin göstərilməsi nəzərdə tutulmuşdur.

Azərbaycanda "Elektron hökumət" ideyası , ilk dəfə olaraq "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci

illər)" Dövlət Proqramında yer almışdır[5]. Strategiyanın həyata keçirilməsi məqsədilə, 2004-cü ildə, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdır. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, bu strategiyanın tətbiqi mövzusunda uyğun olaraq 2005-2008-ci illər (I Dövlət Proqramı) və 2010-2012-ci illər üçün (II Dövlət Proqramı) "Elektron Azərbaycan" Dövlət Proqramlarını hazırlamış və həyata keçirmişdir[6].

"Elektron hökumət" layihəsinin həyata keçirilməsi sahəsində aparılan çalışmalar da, I və II "Elektron Azərbaycan" Dövlət Proqramları və "Azərbaycan Respublikasında "Elektron hökumət"in yaradılması ilə bağlı Fəaliyyət Proqramı (2010-2011)" larına əsaslanır. I "Elektron Azərbaycan" Dövlət Proqramı, daha çox informasiya cəmiyyətinin əsaslarının hazırlanması yönəlsə də, II Proqram, birbaşa elektron dövlətə keçidin sürətləndirilməsi məqsədini daşımışdır.

"Elektron Hökümətin" davamlı inkişafı üçün Azərbaycan Respunlikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında da bu sahədə ardıcıl islahatlar aparılmış və bir sıra vacib Dövlət Proqramları qəbul olunmuşdur. Bu baxımdan, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı ilə yeni informasiya texnologiyalarına inteqrasiyanın əsaslı təməli qoyuldu [7].

Bu sahədə atılmış ən önəmli addımlardan biri, 2012-ci ilin Aprel ayında "Elektron hökumət" portalının (Portal) yaradılması və "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsi formalaşdırılmasıdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 14 mart 2018-ci il "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmışdır [8].

## TƏDQİQAT METODU

"Elektron Hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara, vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsi prosesidir. Portalın yaradılmasında əsas məqsəd, sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir.

"Elektron hökumət"in fərqli yönlər baxımından əsas üstünlüklərini aşağıdakı kimi ayırmaq olar.

*1. Hökumət üçün ,*

a) Müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması;

b) Büdcə vəsaitlərinə qənaət edilməsi, dövlət xidmətlərinin göstərilməsi müddəti və xərclərinin azalması;

c) Dövlət orqanlarının vahid informasiya fəzasının formalaşması və təhlükəsizliyinin təmin olunması;

e) Effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin və yerli özünüidarəetmənin bərqərar olmasıdır.

*2. Vətəndaşlar üçün ,*

a) Vətəndaşların dövlət idarəçiliyində fəal iştirak etməsi;

b) Vətəndaşların dövlət orqanları ilə təmaslarının sadələşdirilməsi, daha münasib və çevik formada həyata keçirilməsi;

c) İnformasiya tələbatının dolğun ödənilməsində rahatlıq;

d) Məhdud imkanlı insanların dövlət xidmətlərinə çıxış imkanı əldə etməsidir.

*3. Biznes sektoru üçün isə,*

a) Dövlət orqanları ilə səmərəli və operativ şəkildə əlaqələrin qurulması, xərclərin azaldılması

b) İqtisadi aktivliyin, rəqabət qabiliyyətinin və xarici bazarlara çıxış imkanlarının artmasıdır [9].

Azərbaycanda elektron hökumətin texniki infrastrukturu, Estoniyanın "X-road" sistemi əsasında qurulub. "X-road" sistemi, dövlət orqanlarının informasiya sistemlərinin müstəqil və təhlükəsiz şəkildə məlumat mübadiləsini təmin edir. Bu elektron hökümət modelini, Azərbaycan və Estoniya ilə yanaşı, Finlandiya dövləti də,tətbiq etmişdir [4].

2013-cü ilin yanvar ayından "Elektron hökumət" layihəsi ilə bağlı aylıq bülletenlər (sənədlər) hazırlanır. Hər ay nəşr olunan bu bülletenlərdə, ölkədə elektron hökumətin formalaşdırılması ilə bağlı görülən və planlaşdırılan xidmətlər, elektron xidmətlərin sayı, bu xidmətlərdən istifadə yolları və təhlillərin müqayisəli statistikası haqqında məlumat verilir.

Elektron Hökumət Platformasında yaradılan Layihələrə gəlincə isə, onlar aşağıdakı şəkildə qeyd oluna bilər.

Araşdırma metodu olaraq anket araşdırması aparılmış və mövzu ilə əlaqədar mili və beynəlxaq ədəbiyyatlardan da istifadə edərək, əvvəlcədən müəyyənləşdirilmiş suallar soruşulmuşdur. Belə ki, 9qapalı(variantlı) və 3 açıq(sərbəst cavablandırma) sualdan və uyğun olaraqda variantlar, "qətiyyən razı deyiləm", "razı deyiləm", "qərarsızam", "razıyam", "tamamilə razıyam" olaraq 5 variant seçilmişdir.

Anketdə istifadə olunan variantlı sualları aşağıdakı kimi sıralaya bilərik.

1. Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində,"sənəd"əməliyyatları azalmışdır.

2. Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində,göstərilən xidmətlərdəki keyfiyyət yüksəlmişdir.

3. Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində, 7 gün 24 saat xidmət verilməkdədir.

4. Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində, məlumatlara daha asan əlçatanlıq təmin olunmuşdur.

5. Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində, xidmət prosesindəki səmərəlilik artmışdır.

6.Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində xidmətlərin əlçatanlığında bərabərlik təmin olunmuşdur.

7. e-Hökümət layihələri şəffaf dövlət düşüncəsini formalaşdırır.

8. Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində vətəndaşlarla, dövlət qurumları arasında daha rahat məlumat mübadiləsi təmin olunmuşdur.

9. Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində bir sıra əməliyyatlar (ödəmələr, növbə sistemi və s.) dövlət qurumlarına getmədən evdən həll ediləbilir və buda, öz növbəsində vətəndaşların işini asanlaşdırır.

Anketdə istifadə olunan açıq (sərbəst cavablandırma) sualları isə aşağıdakı kimi sıralamaq olar.

1. e-Hökümət tətbiqlərinin sizə verdiyi əsas üstünlük nədir?
2. e-Hökümətin daha çox hansı xidmətlərindən istifadə edirsiniz?
3.e-Hökumət layihələrindənistifadə zamanı qarşılaşdığınızproblemlər nələrdir?

## TƏDQİQAT İŞİNİN MÜZAKİRƏSİ VƏ NƏTİCƏLƏRİ

Anketdə soruşulan qapalı (variantlı) v suallar üzrə verilən cavabların statistik göstəriciləri (faiz nisbəti olaraq), sırasıyla uyğun olaraq aşağıdakı şəkildə verilmişdir.

**Qrafik 1.** "Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində "sənəd"əməliyyatları azalmışdır." sualının cavablarının statikstik göstəriciləri.




Yuxarıdakı qrafikdən də göründüyü kimi respondentlərin 1%-i "qətiyyən razı deyiləm", 11%-i "razı deyiləm", 16%-i "qərarsızam", 52%-i "razıyam", 20%-i "tamamilə razıyam" cavabını vermişdilər. Nəticələr, dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində 72% -lik nəticə ilə "sənəd" əməliyyatlarının azaldığını göstərməkdədir.

**Qrafik 2.** "Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində göstərilən xidmətlərdəki keyfiyyət yüksəlmişdir". sualının cavablarının statikstik göstəriciləri.



Qrafikdən də göründüyü kimi respondentlərin 2%-i "qətiyyən razı deyiləm", 5%-i "razı deyiləm", 10%-i "qərarsızam", 61%-i "razıyam", 22%-i "tamamilə razıyam" cavabını vermişdilər. Yəni cavablandıranlar, dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində xidmətlərdəki keyfiyyətin yüksəldiyi yönündən müsbət düşüncədədirlər.

**Qrafik 3.** "Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində 7 gün 24 saat xidmət verilməkdədir." sualının cavablarının statikstik göstəriciləri.




Qrafikdən də göründüyü kimi respondentlərin 32%-i qərarsız qalmış, 39%-i mənfi yəni "qətiyyən razı deyiləm" + "razı deyiləm", 29%-i isə müsbət yəni, "razıyam" + "tamamilə razıyam" cavabını vermişdilər. Nəticələrə baxsaq, e-Hökümət layihələrinin tətbiqi nəticəsində dövlət sektorunda, 7 gün 24 saat xidmət göstərilməsinin tam olaraq təmin olunmadığını deyə bilərik.

**Qrafik 4.**"Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində məlumatlara daha asan əlçatanlıq təmin olunur." sualının cavablarının statikstik göstəriciləri.




Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində məlumatlara daha asan əlçatanlıq təmin olunması sualına, cavablandıranlar ümumi olaraq müsbət cavab vermişlər. Belə ki, respondentlərin 1%-i "qətiyyən razı deyiləm", 9%-i "razı deyiləm", 13%-i "qərarsızam" cavabı verərkən, 54%-i "razıyam", 23%-i isə, "tamamilə razıyam" cavabını vermişlər.

**Qrafik 5.**“Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində xidmət prosesindəki səmərəlilik artmışdır.” sualının cavablarının statikstik göstəriciləri.




Bu suala verilən cavabların faiz nisbətlərinə nəzər salsaq, görə bilərik ki, respondentlərin 50%-dən çoxu, yəni 69%-i müsbət (“razıyam” + “tamamilə razıyam”) cavabını vermişlər. Respondentlərin cəmi 8%-i mənfi, yəni, “qətiyyən razı deyiləm” + “razı deyiləm” cavabını, 23%-i isə, “qərarsızam” cavabını vermişlər.

**Qrafik 6.** “Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində xidmətlərin əlçatanlığında bərabərlik təmin olunmuşdur.” sualının cavablarının statikstik göstəriciləri.




"Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində xidmətlərin əlçatanlığında bərabərlik təmin olunmuşdur." sualına cavabların faiz paylanmasına nəzər saldıqda, iştirakçıların yarısının (50%) e-hökumət xidmətlərinə çıxışda bərabər imkanlar yaratdığını düşündükləri müşahidə olunur. Digər dəyişənlərlə müqayisədə, bu fikir haqqında müsbət düşünən insanların nisbəti aşağıdır. Bir sözlə, iştirakçılar hələ də hesab edirlər ki, imkan bərabərliyinə nail olunmayıb. Qalan 50% respondentdən 12%-i mənfi cavab vermiş (“qətiyyən razı deyiləm” + “razı deyiləm”), 38 %-i isə "Qərarsız" qaldıqlarını bildirib.

**Qrafik 7.** "e-Hökümət layihələri şəffaf dövlət düşüncəsini formalaşdırır." sualının cavablarının statikstik göstəriciləri.




Anketin 7-ci sualında, e-Hökumət layihələrinin tətbiqi nəticəsində vətəndaşlarda şəffaf dövlət düşüncəsinin formalaşıb-formalaşmadığı ölçülüb. Statistik nəticələr göstərir ki, respondentlərin əksəriyyəti (74%) hesab edir ki, e-hökumət layihələrinin tətbiqi şəffaf dövlət düşüncəsini formalaşdırır. Qalan iştirakçıların 3%-i "qətiyyən razı deyiləm" cavabını, 7%-i "razı deyiləm" cavabını, 16%-i isə "qərarsızam" cavabını verib.

**Qrafik 8.** "Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində vətəndaşlarla, dövlət qurumları arasında daha rahat məlumat mübadiləsi təmin olunur." sualının cavablarının statikstik göstəriciləri.




Anketdə ən çox müsbət cavab alınan bu suala, sorğuda iştirak edənlərin 2%-i, "qətiyyən razı deyiləm", 8%-i "razı deyiləm", 10%-i "qərarsızam" cavabını verərkən, 58%-i "razıyam", 22%-i isə "tamamilə razıyam" cavabını verib. Bir sözlə, respondentlərin 80%-i bu suala müsbət cavab verib. Buna səbəb, e-hökumət tətbiqləri nəticəsində, iştirakçılar, vətəndaşolaraq müraciət etmək istədikləri qurumlara getmədən, evlərindən və ya ofislərindən internet vasitəsilə müraciət edə bilirlər və yenə eyni şəkildə müraciətlərinə, aidiyyəti qurumlara getmədən, internet vasitəsilə cavab ala bilirlər.

**Qrafik 9.** "Dövlət sektorunda e-Hökümət layihələrinin tətbiqi nəticəsində bir sıra əməliyyatlar (ödəmələr, növbə sistemi və s.) dövlət qurumlarına getmədən evdən həll ediləbilir və bu da, öz növbəsində vətəndaşların işini asanlaşdırır." sualının cavablarının statikstik göstəriciləri.




Respondentlərin 87%-i bu suala müsbət cavab verib ("razıyam" + "tamamilə razıyam"). Yalnız 5%-i mənfi cavab vermiş ("razı deyiləm" + "qətiyyən razı deyiləm"), 8% isə suala qərarsız olduqlarını bildirmişlər. Sorğunun 9-cu sualının belə müsbət cavablandırılmasının səbəbi həqiqətən də, e-Hökumət layihələri nəticəsində, vətəndaşlar əvvəlki kimi bürokratik proseslərə çox vaxt sərf etmir, yəni vaxtlarına qənaət edir və dövlət qurumlarından bu xidmətləriqısa müddətdə ala bilirlər.

Anketdə soruşulan açıq (sərbəst cavablandırmalı) suallar üzrə verilən cavabların statistik göstəricilərini (faiz nisbəti olaraq), aşağıdakı kimi sıralaya bilərik.

Sual 1. "e-Hökümət tətbiqlərinin sizə verdiyi əsas üstünlük nədir?"sualına verilən cavabları ümumiləşdirib qrafik şəklində Qrafik 9-dakı kimi göstərə bilərik.

**Qrafik 9.** e-Hökümət tətbiqlərinin vətəndaşlara verdiyi əsas üstünlüklərinstatistik göstəriciləri.




Bu sualla bağlı diqqət edilməsi vacib nüanslardan biri də, müsahibədə iştirak edənlərin əksəriyyəti, e-Hökumət praktikasının təktərəfli yox, həm vətəndaşlara, həm qurumlara, həm də dövlət məmurlarına bir sıra faydalar verdiyini düşünürdülər. Qurumların, e-Hökumət layihə-

lərinin tətbiqlərinin əldə etdiyi faydalar (sıralama) siyahısına nəzər salsaq, demək olar ki, Azərbaycan dövləti, e-Hökumət layihələrini həyata keçirməkdə qarşıya qoyduğu məqsədlərə nail olur.

Sual 2. "e-Hökümətin daha çox hansı xidmətlərindən istifadə edirsiniz?" sualına verilən cavabları xidmətlər şəklində ümumiləşdirsək, aşağıdakı kimi sıralaya bilərik.

**Qrafik 10.** Vətəndaşların e-Hökümət xidmətlərindən istifadəsi üzrə statistikası.




Qrafik 10-dan da göründüyü kimi, respodentlərin ümumi statistikası onu göstərir ki, vətəndaşlar əsasən, "rabitə xidmətlərindən", "ödəniş portallarından", "təhsil xidmətlərindən" , "növbə sistemlərindən"və "vergi xidmətlərindən" daha çox istifadə edirlər. Digər tərəfdən isə, vətəndaşların, "səhiyyə xidmətlərindən", "elektron arayış xidmətlərindən", "gömrük", "hüquqi xidmətlər" və "sosial müdafiə" xidmətlərindən digərlərinə nisbətdə daha az istifadə etdiklərinin şahidi oluruq.

Sual 3."e-Hökumət layihələrindən istifadə zamanı qarşılaşdığınız maneələr nələrdir?" sualına verilən cavabları faiz nisbətinə görə ümumiləşdirsək, aşağıdakı Qrafik 11-də ki kimi göstərə bilərik.

**Qrafik 11**. e-Hökumət layihələrindən istifadə zamanı vətəndaşların qarşılaşdığıəsas problemlərin statistikası.



## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ümumilikdə "Elektron hökumət" ilə, ənənəvi(klassik) dövləti müqayisə etsək, aşağıdakı fərqlilikləri göstərmək olar. Klassik dövlətdə, kağız vasitəsilə xəbərləşmə əsas vasitə idisə, elektron hökümətdə xəbərləşmə elektronik xəbərləşməyə keçmişdir. Struktur baxımından klassik dövlətdə iyerarxik struktur mövcud idisə, elektron hökümətə keçid etdikdən sonra, üfüqi və koordinasiyalı şəbəkə strukturuna keçilmişdir. Klassik dövlətdə mövcud olan nəğd pul köçürmələri, yüksək maliyyə xərcləri, məmurun cavablaması, məmurun köməyi, məmur nəzarəti ilə yoxlanış kimi önəmli faktorlar, elektron hökümətə keçid zamanı özünü uyğun olaraq, elektronik maliyyə transferi, minimum maliyyə xərcləri, avtomatik elektron məktub (onlayn xətt), onlayn müştəri xidmətləri (təlimatlar) və avtomatik yoxlama mexanizması ilə əvəz etmişdir.

Elektron hökumət tətbiqlərinin ölkəmizdəki əsasproblemlərinə,əhalinin böyük hissəsinin xidmətlərbarəsində xəbərsiz olması,bəzi dövlət müəssisələrinin elektron hökumət yeniliklərindən və xidmətlərindən istifadə etməməsi səbəbindən əhalinin də qarşılıqlı istifadə edə bilməmələri,daha sonra, internetsiz ərazilərdə elektron xidmətlərdən istifadənin qeyri-mümkün olması kimi problemləri göstərmək olar.

Elektron hökumətin məlumatlandırmasının təhsilin ən aşağı pilləsindən yəni,orta məktəblərdən başladılmasını və istifadəsinin də orta məktəblərdən həyata keçirilməsini təmin etmək, müəyyən məlumatları yüklədikdən sonra artıq "offline" rejimdə də istifadəni təmin etmək, dövlət müəssisələrində elektron hökumət xidmətlərini nəzarətə götürmək və qarşılıqlı elektron mübadiləni tənzimləmək kimi təklifləri irəli sürmək olar.

### İSTİNAD ƏDƏBİYYATI

1. Bağırzade M.M., Azerbaycanda e-devlet, Magistr disertasiya işi, İstanbul. 2009, 70 s.
2. Hacıyev Ş., Dayanıqlı inkişafın Heydər Əliyev modeli, İqtisad Universiteti nəşriyyatı, Bakı. 2009, 93 s.
3. Mahmudova B.H., "Elekrton hökümət və onun yaradılmasının iqtisadi əsaslarının təhlili", Magistr disertasiya işi, Bakı. 2016, 90 s.
4. Muradov M., Səfərəliyeva R., Ağayev Y., və Gurbatov N., "Azərbaycanda elektron hökumət infrastrukturunun və elektron xidmətlərin monitorinqi və qiymətləndirməsi" üzrə hesabat, Bakı, 2004
5. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" (http://www.e-qanun.az/framework/1969 )
6. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010 - 2012-ci illər üçün Dövlət Proqramı" ( http://www.e-qanun.az/framework/19936 )
7. "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, (http://www.e-qanun.az/framework/35496 )
8. "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı" , (https://president.az/articles/27423 )
9. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi rəsmi saytı, "Elektron hökumət" layihəsi, (https://mincom.gov.az/az/view/pages/57 )

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2021. Volume 5, Number 2* *Pages 127-135*

***UOT:331.556;314.7***

# BEYNƏLXALQ MİQRASİYA VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR: MÜQAYİSƏLİ TƏHLİL

**Gunay GULIYEVA**
Baku Engineering University
Baku/Azerbaijan
*guquliyeva1@beu.edu.az*

**XÜLASƏ**

Son zamanlar əhalinin miqrasiyası artmaqdadır və bu hərəkətlərin beynəlxalq münasibətlərə əhəmiyyətli təsiri vardır. Aydındır ki, biz böyüməkdə olan bir fenomen ilə üz-üzəyik, hansı ki tədqiqatçılar bunları beynəlxalq münasibətlər və beynəlxalq miqrasiya anlayışlarına daxil etməlidirlər. Beynəlxalq miqrasiyaya nəzəri yanaşmalarda dövlətlərin və onların arasındakı münasibətlərin əhali axınına təsirinə az yer ayrılmaqdadır. Dövlət fəaliyyətinin əhali hərəkətlərini necə şəkilləndirdiyi, nə zaman belə hərəkətlərin münaqişələrə,nə zaman isə əməkdaşlığa apardığı, dövlətlərin əhali axınına təsir etmək üçün daxili siyasətlərində nələr etdikləri az diqqət alan suallardandır.

Bu məqalədə beynəlxalq miqrasiya və beynəlxalqmünasibətlərarasındakı əlaqəni izah etmək üçün üç teorem təklif olunmuşdur. Bu teoremlərin izahından əvvəl ilkin olaraq neoklassik iqtisadi fikirlə əlaqəli olduğu üçün suverinlik konsepsiyasını nəzərə almaqla bu məsələlərdən bəhs edilmişdir. Lakin beynəlxalq miqrasiya nəzəri cəhətdən izah edilirkən yalnız iqtisadi faktorlardan istifadə etmək düzgün deyil. Buna görə də məqalənin məqsədi beynəlxalq miqrasiya və beynəlxalq münasibətlər arasında əlaqəni izah edərkən onların bir-birlərinə təsirlərini, ölkəyə giriş-çıxış qaydalarının miqrasiya axınına və miqrantların gəldikləri və yaşadıqların ölkələrin siyasətinə təsirlərini araşdırmaqdır və bunlar gələcək araşdırmalar üçün başlanğıc rolunu oynayacaqdır.

**Açar sözlər:** beynəlxalq miqrasiya, beynəlxalq münasibətlər, ölkəyə giriş-çıxış qaydaları, miqrant axını, beynəlxalq miqrasiya nəzəriyyələri.

## INTERNATIONAL MIGRATION AND INTERNATIONAL RELATIONS: A COMPARATIVE ANALYSIS

**ABSTACT**

Recently, population migration is increasing, and these movements have a significant impact on international relations. Clearly, we are facing a growing phenomenon that researchers need to incorporate into the concepts of international relations and international migration. In theoretical approaches to international migration, little attention is paid to the impact of states and relations between them on population flows. How state activity shapes population movements, when such actions lead to conflict and when to cooperation, and what states do in their domestic policies to influence population flows are among the less important questions.

This article proposes three theorems to explain the relationship between international migration and international relations. Before explaining these theorems, these issues were discussed, taking into account the concept of sovereignty, as they were initially related to neoclassical economic thought. However, it is not correct to use only economic factors when explaining international migration theoretically. Therefore, the purpose of the article is to explain the relationship between international migration and international relations, their effects on each other, the impact of entry and exit rules on migration flows and the policy of countries of origin and countries of residence of migrants, which will serve as a starting point for future research.

**Key words:** International migration, international relations, entry and exit rules, migrant flows, international migration theories.

## МЕЖДУНАРОДНАЯ МИГРАЦИЯ И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

**РЕЗЮМЕ**

В последнее время увеличивается миграция населения, и эти перемещения оказывают существенное влияние на международные отношения. Ясно, что мы сталкиваемся с растущим явлением, которое исследователям необходимо включить в концепции международных отношений и международной миграции. В теоретических подходах к международной миграции мало внимания уделяется влиянию государств и отношений между ними на потоки населения. Как деятельность государства формирует движение населения,

когда такие действия приводят к конфликту, а когда к сотрудничеству, и что государства делают в своей внутренней политике, чтобы влиять на потоки населения, относятся к менее важным вопросам.

В этой статье предлагаются три теоремы для объяснения взаимосвязи между международной миграцией и международными отношениями. Прежде чем объяснять эти теоремы, эти вопросы обсуждались с учетом концепции суверенитета, поскольку изначально они относились к неоклассической экономической мысли. Однако при теоретическом объяснении международной миграции неправильно использовать только экономические факторы. Поэтому цель статьи состоит в том, чтобы объяснить взаимосвязь между международной миграцией и международными отношениями, их влияние друг на друга, влияние правил въезда и выезда на миграционные потоки и политику стран происхождения и стран проживания мигрантов, которая послужит отправной точкой для будущих исследований.

**Ключевые слова:** международная миграция, международные отношения, правила въезда и выезда, миграционные потоки, теории международной миграции.

## Giriş

Bu günlərdə İnkişaf Etməkdə Olan {lkələrdən İnkişaf Etməkdə olan Ölkələrə və İnkişaf Etməkdə olan Ölkələr öz aralarında əhalinin hərəkətlərinin beynəlxalq münasibətlərə əhəmiyyətli təsiri vardır. Demək olar ki hər gün mətbuatda bu haqda məruzələrə rast gəlinir. Aydındır ki, biz böyüməkdə olan bir fenomen ilə üz-üzəyik, hansı ki tədqiqatçılar bunları beynəlxalq münasibətlər və beynəlxalq miqrasiya anlayışlarına daxil etməlidirlər. Beynəlxalq miqrasiya nəzəriyyələri dövlət müdaxiləsinə çox az diqqət çəkirlər, yalnız qaçqın ifadəsi beynəlxalq münaqişələrin nəticəsi kimi izah edilmişdir. Dövlət fəaliyyətinin əhali hərəkətlərini necə şəkilləndirdiyi, nə zaman belə hərəkətlərin münaqişələrə nə zaman isə əməkdaşlığa apardığı, dövlətlərin əhali axınına təsir etmək üçün daxili siyasətlərində nələr etdikləri az diqqət alan suallardandır.

Tədqiqata başlamazdan əvvəl üç teorem təklif edərək və onları gücləndirəcək fikirlərin izahını veriləcək:

İlk teorem budur ki dövlətlərin beynəlxalq miqrasiyaya qarşı fəaliyyət və ya fəaliyyətsizliyi onlar arasında münasibətlərə təsir edir. Nəticə tez-tez konfliktlə nəticələnsə də, lakin bəzi şərtlər altında hökümətlər arasında məsləhətləşmə və əməkdaşlıqla da nəticlənə bilər.

İkinci teorem dövlətlər yaratdıqları ölkəyə daxil olma və ya çıxış qaydaları beynəlxalq miqrasiyaya təsir edir. Bu teoremin nəticəsi odur ki, bu qaydalar dövlətlər arasında münasibətlərdən təsirlənir. Beynəlxalq əhali hərəkətinə münasibətdə hansi siyasəti izləməli olduqlarını dövlətlər başqa dövlətlərin fəaliyyəti əsasında formalaşdırırlar.

Üçüncü teorem budur ki, beynəlxalq miqrantlar yaşadıqları olkədə siyasi gücə çevrilirlər. Yaşadıqları və gəldikləri ölkənin siyasətinə münasibətləri bu ölkələrin daxili siyasətində və göndərən və qəbul edən ölkələrin siyasətində münasib faktora çevrilir [13].

Mən ilkin olaraq neoklassik iqtisadi fikirlə əlaqəli olduğu üçün suverinlik konsepsiyasını nəzərə almaqla bu məsələlərdən bəhs edilməlidir. Bura kimi iki sadə mühakimə yürüdülmüşdür. Biri odur ki, suverinlik anlayışı beynəlxalq miqrasiya təsirdə dövlətin rolunu aydınlaşdırmaqda mərkəzi rol oynayır. İkincisi isə əksinə olaraq bir çox hallarda dövlət suverenliyi aşınmaya məruz qalır və biz beynəlxalq miqrasiya və beynəlxalq münasibətlər arasında əlaqəni başa düşmək üçün bunun niyə və necə baş verdiyini anlamalıyıq.

### Severenlik və neoklassik iqtisadi liberalizm

Suveren dövləti formalaşdıran amilləri aşkar etmək çətin olsa da, bir tərəfdən burda ümumdünyavi anlaşma var: dövlətin kimin ölkəyə girmək və kimin vətəndaş olmaq hüququ-

nun olmasını müəyyən etməkdə ekskluziv muxtariyyəti var. Bir ölkə ki digər ölkənin müstəmləkə qaydaları buna qərar verir suveren ola bilməz. Müstəmləkə qüvvələri yalnız kimin daxil olmasına qərar vermir, həmçinin kimin daimi məskunlaşmasını və müqavilələi işçi qüvvəsinin ölkəyə girişinə də qərar verir.

Neoklassik iqtisadi liberallar hamının faydalanmasını təmin etmək məqsədi ilə resursların səmərəli bölüşdürülməsi üçün azad ticarət və kapitalın azad axınını müdafiə etdikləri halda, heç bir liberal insanların maneəsiz axınını müdafiə etməmişdir [3]. Aydındır ki səbəb istehsalın digər faktorları kimi insan axınının da maneəsiz olmasının resursların səmərəli istifadəsinə gətirib çıxarmayacağı deyil. Bir dünyada ki tələbin böyük olduğu yerə işçi qüvvəsinin azad hərəkəti sərhədsiz tələb və təklifin qarşılanması iqtisadi cəhətdən daha səmərəli olar,lakin bu artıq suveren dövlətlərin dünyası olmaz.

Belə ki, hətta ən həvəsli neoklassik iqtisadçı insanların hərəkətinə münasibətdə resursların səmərəli istifadəsindən başqa mülahizələrin olduğunu bilir. İmiqrasiyada dövlət nəzarətinin olmadığı təqdirdə bir ölkə digər ölkəni müstəmləkəçilik vasitəsi ilə asanlıqla işğal edə bilər. Əgər 35 milyon çalışqan çinli Birmada yaşamaq icazəsi alsa Birma iqtisadiyyatı çox yaxşı inkişaf edə bilər və birmalılar iqtisadi cəhətdən qazanmış olarlar. Lakin Birma artıq Birma olmaz. Birmalılar onların milli adətlərini qoruyub saxlaya bilməz və onlar öz dövlətləri üzərində nəzarəti itirər.

Dövlət idarə edənlərin dövlətin milli mənsubiyyətini və dəyərlərini, həmçinin siyasi təşkilatlar üzərində nəzarəti qoruyub saxlamaq üçün açıq girişi istisna edir. Ölkələr əhalisinin yaxın etnik qohumluğu olan əhali ilə açıq girişi təklif edir. Belə ki, Çin Xalq Respublikası viyetnamlı qaçqınların ölkədən çıxarılmasına qərar vermişdir, Hindistan Pakistan və Banqladeşdən hindusların ölkəyə qəbul edib, İzrail Geri Qayıtma Qanunları altında (Law of Return) yəhudilər bütün dünyadan qıbul edir, Fransa Əlcəzairdən Avropa mənşəli əhaliyə (pieds-noirs) qapılarını açıb, Körfəz Əməkdaşlıq Şurasının üzvləri (Fars körfəzinin qərb sahillərində yerləşən ərəb ölkələri) bir dövlətdən digər dövlətə azad hərəkətinə icazə verir, və 1920-ci illərdə Yunanıstan Türkiyədən etnik yunanlara qapılarını açmışdır. Ölkələr həmçinin tarixi bağlarının olduğu və öhdəlilələri və vəzifələri olan ölkələrdən əhalinin gəlişinə icazə verirlər. Məsələn Birləşmiş Ştatlar Vyetnamdan, Niderland Timordan, Birləşmiş Krallıq hindistanlıları Şərqi Afrikadan qəbul edir. Avropa İqtisadi Birliyinin üzv ölkələrin vətəndaşlarının azad hərəkatı qərarı ümumi Avropa mədəniyyətinin yaradılmasında tarixi bir addımdır [2,13].

Birləşmiş Ştatlar azsaylı dövlətlərdəndir ki, onlar üçün ölkəyə giriş təyinediciləri təhsil və peşə ilə əvəz edilmişdir. Həqiqətdir ki, Avropa İttifaqı və Körfəz ölkələri də işçi qüvvəsinin sərbəst axınını asanlaşdırıb lakin onlar iş üçün icazə və vətəndaşlıq qaydalarını fərqləndirirlər.

Bütün bunlar göstərir ki ölkəyə giriş qaydaları çox az iqtisadi faktorlardan təsirlənmişdir hətta azad ticarət, kapital və texnologiya axınına açıq olan ölkələr belə. Millətin öz milli mənsubiyyətinə və digər xalqlara münasibətinə necə tərif verməsi ölkəyə giriş qaydalarına və işçi qüvvəsinə olan tələbata hökumətin cavabına təsir edir.

**Giriş qaydaları**

Dövlətlər nəzərə çarpacaq dərəcədə giriş qaydalarına görə bir-birindən fərqlənir. Geniş mənada biz 5 tip qaydaları təqdim edə bilərik: [11]

1. Məhdudiyyətsiz giriş qaydaları. Baxmayaraq ki heç bir dövlət azad şəkildə hər kəs üçün girişə icazə vemir, bəzi dövlətlər qonşu ölkə vətəndaşlarına məhdudiyyətsiz girişi təmin edir.

Məsələn bir etnik qrup azad şəkildə geri və irəli hərəkətə icazə verilir, tarixi olaraq belə bir hal Əfqanıstan və Pakistan arasında paştun dilli qəbilələrin sərhəddi keçmələri olmuşdur.

2. Təşviqedici giriş qaydaları. Ölkələr əhalisinin sayını artırmaq cəhdi ilə və ya müvəqqəti işçi qüvvəsinə olan tələbatı qarşılamaq məqsədi ilə ölkəyə girişi təşviq edə bilərlər. Məsələn 20-ci əsrin əvvəllərində Avstraliya və Yeni Zenlandiya kimi. 1950-1960-cı illərdə Avropa ölkələri Türkiyədən miqrant axtarışında idilər. Həmçinin 1970- ci və 1980-ci illərin əvvəllərində neft istehsal edən Fars körfəzi ölkələri Ərəb və Asia ölkələrindən işçi qüvvəsini cəlb edirdilər. İsrail milli ideologiyasına əsasən Yəhudi dövləti yaratmaq məqsədi ilə harda yaşamaqlarından asılı olmayaraq yəhudilərin immiqrasiyasını təşviq edirdilər.

3. Seçmə giriş qaydaları. Bir çox ölkələr miqrant gəlişini aktiv təşviq etməsələr də seçmə şəklində miqrant qəbulunu həyata keçirirlər. Onlar, ailə birləşmələrinə bəzi sahələrdə işçi qüvvəsinin gəlməsinə, xarakterinə və sayına limit qoymaqla qaçqınların axınına icazə verə bilərlər.

4. Arzuolunmaz giriş qaydaları. Bəzi ölkələr qeyri-qanuni miqrant axının qarşısını almaq üçün qanunu olaraq bu cür girişlərə qadağa qoyur. Nəticə olaraq miqrant əhali leqal qurumlar tərəfindən qorumasız və hətta təcavüzə məruz qalırlar.

5. Qadağa olunmuş giriş qaydaları. Bir çox ölkələr immiqrasiyanı məhdudlaşdırdıqları halda çox az sayda ölkələr (məs., yaponiya) uzun müddətli ölkəyə girişləri və vətəndaşlıq almaq qaydalarını demək olaraq mümkünsüz edirlər.

**Çıxış qaydaları**

Biz həmçinin çıxışın da beş tipini müəyyən edə bilərik [11].

1. Qadağa olunmuş çıxış qaydalar. Suveren dövlətlərin giriş qaydaları olduğu kimi, dövlətlər digər dövlətlərin də belə qaydaları olduqlarını tanıyır hökümətlərin çıxış qaydalarını suverenlik axtarışına qarşı bənzərsiz baxışları var. Demokratik dövlətlər vətəndaşlıq anlayışına tərk etmək hüququnun da daxil olduğunu nəzərə alır. Lakin totalitar dövlətlər öz vətəndaşlarına bu hüquqları vermirlər. Bu səbəbdən İnsan hüquqları üzrə Helsinki bəyannaməsi və Birləşmiş Millətlər Bəyannamələri vətəndaşların ölkəni tərk etmək hüququ olduğunu bəyan edir.

2. Seçmə ölkədən çıxış qaydaları. Hökümətlər seçmə olaraq bir qrup vətəndaşa tərk etmək hüququ verə bilərlər. Onlar xüsusi bacarıqları olan əhalinin çıxışını məhdudlaşdıra bilərlər. Məsələn Misir həkimlərin ölkədən çıxışını məhdudlaşdırdığı kimi.

3. İcazə verən çıxış qaydalar. Bəzi ölkələr açıq şəkildə vətəndaşlıq vəzifələrini yerinə yetirdiyi təqdirdə ölkəni tərk etməyə icazə verirlər (məsələn, qanuna zidd hərəkət sərgiləməyib-lərsə, vergiləri ödəyirlərsə və s.). Qərbi demokratik dövlətlər bəzi tənzimləmələr olduğu halda çıxış hüququnun vətəndaşların fundamental hüuquları olduğuna riyayət edirlər.

4. Ölkədən çıxışı təşviq etmək. Hökumətlər işsizliyi azaltmaq və pul köçürmələrinin (remittance) artırmaq üçün vətəndaşların ölkədən çıxışını həvəsləndirə bilərlər. Bəzi ölkələr xaricdə iş tapmaq üçün təhsil proqramları açırlar. Şri-lanka, Pakistan, Banqladeş və Hindistan vətəşdaşların ölkədən getməsini təşviq edirlər. Həmçinin bir zamanlar Türkiyənin immiqrantların Almaniyaya, Əlcəzair immiqrantların Fransaya axınını təşviq edirdi.

5. Ölkədən qovulanlar. Hökumətlər bəzi vətəndaşları ölkədən qova bilərlər. Onlar həmçinin qalacaqları təqdirdə onları təhlükəsizlikləri ilə və ya gəlirləri ilə hədələyə bilərlər. Belə

qruplar dissident və ya sosial sinfə təhlükə yarada bilərlər (Məsələn Kubada Kastro inqilabından sonra orta sinif) və ya bu etnik azlıq ola bilər (Məsələn Ermənistanda 80-ci illərin sonlarında azərbaycan əhalisi). Bir çox qaçqın axınları daxili siyasi qiymarların nəticələri olur.

**Beynəlxalq miqrasiya nəzəriyyələri**

Beynəlxalq miqrasiyanı şəkilləndirən dörd qrup dəyişən vardır. Birinci qrup differensial (fərq gətirən müəllifdən) dəyişənlərdir, məsələn əmək haqqı fərqləri, məşğulluq dərəcəsindəki fərqlər, torpaq qiymətlərindəki fərqlər və s. İkinci qrup dəyişənlər məkan dəyişənləridir, məsələn məsafə və nəqliyyat xərcləri. Üçüncü qrup qohumluq dəyişənləri kimi xarakterizə oluna bilər, məsələn din, mədəniyyyət, dil və s. Və dördüncü ölkəyə giriş dəyişənidir (giriş və çıxış qaydaları). Differensial və məkan dəyişənləri adətən iqtisadçıların nəzərindədir, məkan dəyişənləri coğrafiyaçıların, qohumluq dəyişənləri sosioloqlar və antropoloqların, ölkəyə giriş dəyişənləri isə siyasi elmlərin nəzərindədir [15].

Təssüf ki, beynəlxalq miqrasiya nəzəriyyəsi ölkəyə giriş dəyişənlərinə ekzogen (xarici faktorlardan asılı) kimi baxır. İqtisadçılar çox vaxt differensial, məkan və qohumluq dəyişənlərinə öncəlik tanıyaraq ölkəyə giriş dəyişənlərini araşdırmaların xaricində tutmağa çalışırlar. Əslində, ölkəyə giriş qaydaları digər dəyişənlərə təsir edirlər. Məsələn, harada ki, differensial dəyişənlər yüksəkdir, yaxın qohumluq əlaqələri var və məsafələr azdır, ölkə giriş qaydalarını müəyyən etməkdə çətinlik çəkir (Məs., Birləşmiş Ştatlar Meksika ilə əlaqəli, Hindistan Banqladeşlə əlaqəli və s.). Lakin, harada ki, differensial dəyişənlər və qohumluq əlaqələri aşağıdır, məsafələr yaxın olsa belə qonşu dövlətlər giriş qaydalarını müəyyən etməkdə rahatdırlar (Məs, Fransa və Almaniya İkinci Dünya müharibəsindən əvvəl) [3,9].

Ölkəyə giriş qaydaları miqrantların şəxsi qərarlarına da təsir edir. Miqrantlar çox zamanlar ciddi giriş qaydaları olan ölkələri seçməkdən çəkinirlər. Oxşar iqtisadi imkanları olan ölkələr arasında ciddi giriş qaydaları olan ölkələr miqrasiya üçün daha az cəlb edicidirlər. Oxşar olaraq, miqrantlar həmçinin nəzərə alırlar ki onların ölkəyə girişi sonrakı miqrasiyanın qarşısını alır yoxsa yox.

Ölkəyə giriş qaydalarını anlmaq başqa bir perspektivdən də vacibdir. Onlar yalnız beynəlxalq miqrasiyaya deyil, həm də beynəlxalq münasibətlərə də təsir edir. Dövlətlər arasında qaydaların uyğunluq və ya uyğunsuzluğu münaqişələrin və əməkdaşlığın gedişatına təsir edir. İmmiqrasiya və ya emmiqrasiyanın kəsişmələri aşağıdakı modelləri təklif edir [16]:

- Bir ölkə girişi digər ölkə isə çıxışı təşviq edəndə harada ki, bir ölkə işçi qüvvəsini ixrac etmək istəyən ölkədən işçi qüvvəsi ixrac edəndə bu iki ölkə üst-üstə düşən maraqlarla əmək haqları, iş qaydaları, qürbətdə qaydalar, pul köçürmələrinin tənzimlənməsi və s. Məsələlərdə əməkdaşlıq edə bilər. Fransız və Əl-cəzair münasibətləri buna misal ola bilər. İkili əməkdaşlıqla yanaşı, bir neçə ölkənin cəlb olunduğu çoxtərəfli əməkdaşlıq da mümkün ola bilər, nümunə kimi Fars körfəzi ölkələri arasında əməkdaşlığı göstərmək olar. Bir ölkə həmçinin, ölkədə azlıq təşkil edən millətin köçünü istərkən, digər ölkədə çoxluq təşkil edən həmin millətin onların girişini təşviq edə bilər. 1920-ci illərdə Balkan ölkələri arasında baş verən razılaşmanı buna misal göstərmək olar.

- Bir ölkə emiqrasiyanı icazə verə, təşviq edə və ya məcbur edərsə harada ki digər dövlət girişi qadağan edir konfliktin yaşanması yüksək ehtimallardandır. Banqladeşdən şimali Hindistana miqrasiya iki ölkə arasında münaqişənin mənbəyi olmuşdur, digər bir yandan miqrasiya Əfqanıstandan Pakistana da misal ola bilər. Meksikadan Birləşmiş Ştatlara qeyri-qanuni miqrant axını tərəflər arasında münaqişəyə yol açmışdır.

- Bir ölkə emiqrasiyanı məhdudlaşdırdığı halda digər ölkə miqrasiyanı təşviq edirsə ölkələr arasında danışıqlar açıq ola bilər. Sovet İttifaqının qarşı çıxdığı yəhudilərin emiqrasiya məsələsində Birləşmiş Ştatlar və İsrail Sovet İttifaqının miqrasiya qaydalarına təsir etməsinə səbəb olmuşdu.

- Gərgin münasibətləri olan ölkələr gələcək münaqişələrdən çəkinmək üçün sərhədlərini mphürləyirlər. Məsələn Çin Xalq Respublikası çıxışı və Sovet İttifaqı isə girişi qadağan etdiyində bu ölkələr arasında sərhəd dünyada ən uzun sərhəd olsa belə bu ölkələr arasında miqrasiya yaşanmır (və ya çox az rast gəlinir).

- Əgər digər ölkə bu axına qarşı deyilsə bir ölkədən qovulma (qaçqınlıq) konfliktin səbəbi olmaya bilər. Məsələn, yəhudilərin Şimali Afrikadan 1950-ci illərdə çıxarılması kimi. əksinə, 1948-ci ildə İsraildən ərəblərin mməcburi çıxarılması İsrail və qonşu Ərəb ölkələri arasında bitməz münaqişəyə səbəb olmuşdur.

Ölkəyə giriş qaydaları asanlıqla beynəlxalq miqrasiya və beynəlxalq münasibətlərə təsir etmir. Aydındır ki, qaydlar özləri dövlətlər arasında münasibətlərin təsirindən formalaşır. Qaydalar beynəlxalq danışıqların obyekti ola bilər. Hökümətlərin əhəmiyyətsiz hesab etməsinə baxmayaraq Beynəlxalq Əmək Təşkilatının ölkəyə giriş və çıxış qaydalarına aid bir sıra konvensiyaları vardır. Tez-tez bir ölkənin ölkəyə giriş qaydaları digər ölkənin ölkədən çıxış qaydalarına əsasən formalaşır. Məsələn, Avstriya höküməti Sovetlərdən gələn qaçqınların ölkəyə girişinə icazə verirdi, lakin bunu üçüncü ölkələrin daimi girişi təmin etdikləri üçün edirdi [1].

Bir daha vurğulanması lazımdır ki, ölkəyə giriş çıxış qaydaları sadəcə iqtisadi faktorlardan təsirlənmir. Qlobal iqtisadi dəyişikliklər dövlətləri öz giriş-çıxış qaydalarını dəyişməyə vadar edə bilər, neft qiymətlərinin qalxması neft hasil edən ölkələrdə işçi çatışmamazlığı yaratdı və bu da digər dövlətlərin işçi ixracına səbəb oldu. Bundan başqa xüsusi təsərrüfat və sənaye siyasəti işçi qüvvəsinə olan tələbatı artıra bilər, bu da dövlətləri giriş-çıxış qaydalarını asanlaşdırmağa vadar edər. Lakin hökümətlərin qərarlarının yalnız iqtisadi faktorlar tərəfindən idarə olunduğunu demək səhv olar. Belə ki, bəzən hökümətlər giriş-çıxış qaydalarını seçərkən iqtisadçıların səmərəli hesab etmədikləri kimi davrandıqlarınıgörmək olur. Prodaktiv azlıq siyasi dominantlıq edən çoxluğun statusunu yaxşılaşdırmaq üçün ölkədən qovula bilər. Və ya hökümət milli sərvətə töhvə verəcək miqrant axının ölkədəki siyasi nəticələrindən qorxaraq immiqrasiyanı dəstəkləməyə bilər [6].

Ölkəyə giriş qaydaları rəsmi təsvir edilmiş norma, prosedur və mexanizmlərdən daha geniş başa düşülməlidir. Qaydalar idarəedici güc və dövlətlərin qanuni normaların tətbiqinin arzu olunmasını və ölkənin reputasiyasını nəzərdə tutur. Hər hansı ölkə ölkədən qeyri-qanuni gələnləri qova bilər, lakin bu reputasiya avtaritar ölkələr üçün demokratik ölkələrdən daha rahatdır. Bu həmçinin, hökümətlər üçün dominant etnik qrupla qohumluq əlaqəsi olmayan azlığı departasiya etmək, dominant qrupla sıx qohumluq əlaqəsi olan azlığı departasiya etməkdən asandır. Məsələn, Uqanda üçün hind əhalisini, Fars körfəzi ölkələrinin Asiyalı miqrantları ölkədən çıxartmaq çətin olmadı, lakin Hindistan üçün qeyri-qanunu məskunlaşmış Banqladeş əhalisini, Amerika Birləşmiş Ştatları üçün meksikalı qeyri-qanuni miqrantları, Körfəz ölkələrinin ərəbləri qovması siyasi cəhətdən çətindir. Kommunist rejimlərin dissidentləri ölkədən çıxarmasında və ya çoxsaylı insanları ölkədən çıxıb getməyə məcbur etmədə reputasiyası vardı. Kastro inqilabından sonra çoxsaylı kubalıları, çinlilərin Vyetnamdan, qaçqınların Kamboca və Laosdan, Çin kommunist işğalından sonra tibetlilərin, hökümətin

dissidentlərə qarşı sərt tədbiləri nəticəsində macarların və çexlərin, kommunist çevrilişindən sonra əfqanların çıxarılması misal göstərmək olar [9].

**Beynəlxalq migrantlar aparıcı faktor kimi**

Üçüncü və son təklif ondan ibarətdir ki, beynəlxalq migrantlar yaşadıqları ölkədəki siyasi prosessə və yaşadıqları ölkə və gəldikləri ölkənin siyası münasibətlərinə təsir edən güclü faktora çevrilirlər. Mən qısaca misallarla bu mürəkkəb prossesi izah edəcəm.

Miqrantlar və onların sələfləri yaşadıqları ölkələrin miqrasiya siyasətinə təsir etmək yolları axtarırlar; onlar bəzən gəldikləri ölkələrin qitisadi və xarici siyasi maraqlarına fayda verən siyasi xətləri təşviq etməyə çalışırlar; və alternativ olaraq onlar gəldikləri ölkələri tənqid edirlər və gəldikləri ölkələrin daxili siyasətinə təsir etmək üçün yaşadıqları ölkələrə təzyiqlər göstərirlər. Qısacası, miqrantlar bir sıra siyasi müdaxilələrə cəhd edə bilirlər. Bir neçə siyasi fəal qruplara toxunmaqla bu müxtəlif yanaşmaları göstərmək olar. Məsələn, Birləşmiş Ştatlarda Prezident Markosun oppenentləri olan Filippin immiqrantları, Almaniyadakı anti-türk erməni terroristləri, Çikaqoda polyak immiqrantları və onların sələfləri, Floridada Kuba qaçqınları, Birləşmiş Ştatlarda nikaraqualı qaçqınlar, Niderlandda Timorlu immiqrantlar, Səudi Ərəbistanda yəmənlər [5,10].

Diasporalar hər zaman gəldikləri ölkələr üçün yaxşı xəbər deyil, həmçinin yaşadıqları ölkələr üçün də ürək açıcı xəbər deyil. Miqrantlar həm gəldikləri, həm də yaşadıqları ölkələr üçün siyasi faktordular.

Miqrantlar öz dini, sosial və mədəni müəssisələrini yenidən qurmaq üçün müxtəlif yollar axtarırlar. Mümkün olduğunda onlar öz medialarını, uşaqları üçün məktəblər, dini təşkilatlarını, və siyasi qurumlarını açırlar. Miqrantların başlıca qayğıları öz mədəni irslərini qorumaqdır və cəmiyyətlərinin maraqlarını müdafiə etməkdir. Cəmiyyət üzvləri gəldikləri ölkələrin onların məqsədlərinə çatmaları üçün kömək istəyə bilərlər, və əvəzində onlar yaşadıaqları ölkənin siyasətinə gəldikləri ölkənin maraqları üçün təsir etməyə cəhd edə bilərlər.

Miqrant cəmiyyətinin əlaqələrini dəqiqliklə araşdırmaq mürəkkəb məsələdir. Bu araşdırmalar miqrantların öz ölkələrini hansı səbəblərdən tərk etmələrindən, və onların gəldikləri və yaşadıqları ölkələrə qarşı siyası baxışlarından asılıdır. Miqrant cəmiyyəti gəldikləri ölkənin hökümətlərinə qarşı fikirlərinə görə ayrıla bilərlər, məsələn, iranlılar İslam inqilabı zamanı, Çinlilər kommunist inqilabından sonra. Miqrant cəmiyyəti arasında etnik ayrılmalar da gəldikləri ölkə ilə münasibətlərinə təsir edə bilər, Məsələn Malaziyadan olan çinlilər digər ölkələrdən gələn çinlilərdən fərqli münasibət göstərə bilər. Son olaraq, öz doğmalarını görmək üçün izin verən ölkələrə miqrantların münasibəti müsbt olur. Məsələn Amerika Birləşmiş Ştatında Sovet İttifaqı illərində macarların öz ölkələrinə və rusların Sovet ittifaqına münasibətini müqayisə etmək olar [14].

Əgər miqrantlar gəldikləri ölkələrin hökümətlərinə qarşı çıxış edərlərsə yaşadıqları və mənşə ölkəsi arasında gərginliklər yaranır. Mənşə ölkələri tərəfindən miqrant əhalisinə qarşı görülən tədbirlər mürəkkəb və dəyişkən məsələdir. Onlar mədəni və dini bağlantıların yayılmasından razı ola bilərlər ( məs, Hindistan hökümətinin xarici ölkələrdə hindistan mədəniyytini təbliğinə olan müsbət münasibəti kimi) və ya rahatsızlıq yaşaya bilərlər(məs, Türkiyənin türk dini mühafizəkarlar cəmiyyətinin Almaniyada böyüməsi kimi). Mənşə ölkələri ilkin qayğılarından biri də ölkəyə gələn valyuta axınıdır. Məsələn, Hindistan və Çin öxlərinin xaricdə yaşayan vətəndaşları ilə investisiya axınını və texnologiya tranferlərini təşviq etmək

üçün sıx əməkdaşlıq edirlər [12].Qeyd olunmalıdır ki, mənşə ölkələri və miqrantlarla sıx bağlılıq yalnız miqrantlar və onların vətənləri arasında münasibətləri formalaşdırmır, həmçinin miqrantların yaşadıqları ölkədə mədəni plüralizmə də təsir edir.

Yaşadıqları ölkədə siyasi iştirak mühiti miqrantların oynadığı rola təsir edir. Orta Şərqin işçi qüvvəsi idxal edən ölkələrində yerli qüvvələrlə miqrantların bağları müxtəlifdir, və Avropada Orta Şərqdən fərqli olaraq miqrant işçilərin siyasi hüquqları var. Sərhədləri tez-tez keçən əhalinin statusu digər bir vacib məsələdir. Məsaməli sərhədlər insanlara asanlıqla irəli geri hərəkət etmələrinə səbəb olur ki, bəzi hökümətlər bu cür hərəkatı öz cəmiyyətlərinə, ticarəti nəzarət etmələrinə, həmçinin milli inteqrasiya ölçülərinə təhlükəli hesab edirlər. Sərhədləri aşmaq bir zamanlar müsbət siyasi kurs hesab edilsə də, indi problem kimi görülür.

Bu tədqiqatlar yalnız diasporaların formalaşması və onların fəaliyyətinin daxili və xarici siyasətə təsirinin qısa izahıdır. Vurğulanmalı olan məsələ bu diasporaların daxili və beynəlxalq siyasətlə olan bağlantısıdır. Miqrantların yaşadıqları (çoxluq olduqları) ölkələr xarici siyasətlərində qərarlar qəbul edərkən miqrantları da nəzərə almalıdırlar. Pakistan silahlı puştunların ölkəyə gəlişinin qarşısını almaq üçün sərhədləri bağladıqda Puştun dilli miqrantların fikirlərini nəzərə almalı olduğu kimi və ya Birləşmiş Ştatlar Meksika sərhədini qeyri-leqal miqrantların qarşısını almaq üçün bağlamaq istədikdə miqrant əhalini nəzərə almalı olduğu kimi.

**Nəticə - formalaşan siyasi prosess**

Biz yeni beynəlxalq reallıqlar altında dəyişən həssas suverenlik anlayışına baxdıq. Dövlətlətlərin qarşılıqlı asılı olmaları yeni fikir deyil, belə ki burada artmaqda olan nəqliyyatda, texnologiyada, silahlanmada qlobal trendlər kimi daxili siyasət üzərində məhdudiyyətlər vardır, həmçinin dünya iqtisadiyyatı suverenliyin erkən anlayışını aşındırır. Beynəlxalq miqrasiya haqda nadir anlaşma ondan ibarətdir ki, onun nəticəsində ölkə daxilində əhalinin tərkibi dəyişir və ona görə də həmin ölkənin daxili siyasətini birbaşa təsir edir. Nəticədə yalnız pul sistemləri, ticarət axınları cəlb olunmur, daha dərinə ensək insanları cəlbedən təsiredici qarşılıqlı əlaqədən də söhbət gedir.

Beynəlxalq miqrasiya siyasi xadimlər arasında daha çox müzakirə olunduqca, siyasi xadimlər miqrasiya ilə bağlı qərarların qəbulunda beynəlxalq münasibətlərin təsiredici gücünün fərqində olurlar. Miqrasiya məsələsi ikitərəfli və regional danışıqlar mövzusu olunca hakimiyyət dəyişikliyi zamanı dəyişən əmək və daxili məsələlərdən müdafiə və xarici əlaqələr olacaq. Miqrasiyanın beynəlmiləşməsi məsələsi miqrantların gəldikləri və qəbul olunduqları ölkələr arasında daxili bürokratik dəyişikliklərə də səbəb olacaqdır.

Bundan başqa beynəlxalq miqrasiya nəticəsində qalxan məsələlər yalnız bir hökuməti narahat edən məsələ deyil. Həqiqətən göndərən və qəbul edən ölkələrə baxdıqda miqrasiya üzərində neçə aktorların məsələ ilə bağlı siyasi mübarizədə olduğunu görmək olur. Və burada dördüncü mülahizə də yeridilə bilər ki, miqrasiyanın beynəlxalqlaşdırılması daxili bürokratik məsələyə çevrilir və göndərən və qəbul edən ölkələr arasında bir çox hallarda münaqişəli məsələyə çevrilir. Gələcək tədqiqatlarda miqrasiya ilə bağlı qərarlar alındığında siyasi prosesə, prosesdə iştirak edən tərəflər və siyasi məhdudiyyətlər nəzərə alınmalıdır.

**ƏDƏBİYYAT**


1. Barth, F. (2010). Introduction to ethnic groups and boundaries: The social organization of cultural difference. *Selected Studies in International Migration and Immigrant Incorporation*, *1*, 407.
2. Böhning W. R. (1974). Immigration policies of Western European countries. *International Migration Review*, *8*(2), 155-163. Doi: https://doi.org/10.1177/019791837400800204
3. Böhning W.R. (1981). Elements of a Theory of International Economic Migration to Industrial Nation States. *İnternational Migration Review*, 28-43. doi:https://doi.org/10.1177/019791838101501s04
4. Connor, W. (1985). *Mexican Americans in Comparative Perspective*. University Press of America, 4720 Boston Way, Lanham, MD 20706.
5. Dib, G. (1979, Iyun). Migration and naturalization laws in Egypt, Lebanon, Syria, Jordan, Kuwait, and the United Arab Emirates. Part I: migration laws. *Population Bulletin of the United Nations Economic Commission for Western Asia*, 33-62.
6. Freeman, G. P. (2015). *Immigrant labor and racial conflict in industrial societies*. Princeton University Press. Doi: https://doi.org/10.1515/9781400869053
7. Miller, M. J. (1979). Reluctant partnership: foreign workers in Franco-Algerian relations, 1962–1979. *Journal of International Affairs*, 219-237. https://www.jstor.org/stable/24356282
8. Portes, A. (1979). Illegal immigration and the international system, lessons from recent legal Mexican immigrants to the United States. *Social Problems*, *26*(4), 425-438. Doi:https://doi.org/10.2307/800506
9. Teitelbaum, M. S. (1985). Forced Migration: the tragedy of mass expulsions. *Clamor at the gates: The new American immigration*, 261-83.
10. Zolberg, A. R. (1984). *Social conflict and refugees in the Third World: the cases of Ethiopia and Afghanistan*. Annual meeting American Political Science Association, Washington D.C.
11. Zolberg, A. (2006). International migration in political perspective. In *The migration reader: exploring politics and policies* (pp. 63-88). Lynne Rienner Publishers.
12. Weiner, M. (October 1983). International emigration: A political and economic assesment. Conference on Population Interactions Between Poor and Rich Countries, Cambridge, Massachusetts, pp.39
13. Weiner, M. (Sentyabr 1985). On International Migration and International Relations. *Population and Development Review*, 441-455. doi:https://doi.org/10.2307/1973247
14. Воробьева О.Д. (2020). Социокультурные исследования международной миграции и демографии / О.Д.Воробьева, В.В.Константинов.МИРОВАЯ ЭКОНОМИКА И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ. том 64, № 5, с. 124-129. DOI: 10.20542/0131-2227-2020-64-5-124-129
15. Гаврилова, Т. М. Теория международной миграции рабочей силы / Т. М. Гаврилова [Электронный ресурс] // Вопросы экономики. Режим доступа: . Дата доступа: 08.11.2009
16. **Потёмкина Т. В. (2008)** ***Миграционные процессы в современной системе международных отношений.*** **Знание. Понимание. Умение. 116-122**
17. Решение проблем международной миграции и развития в рамках системы ООН и других соответствующих международных организаций https://www.un.org/ru/development/migration/system.shtml

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2021. Volume 5, Number 2* *Pages 136-143*

*UOT: 338.47*

# AZƏRBAYCANDA İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ RƏQƏMSAL İQTİSADİYYATIN İNKİŞAFINDA VƏ FORMALAŞMASINA TƏSİRİ[1]

**Xəyalə İBRAHİMOVA**
Bakı Mühəndislik Universiteti
Azərbaycan Dövlət İqtisad Universiteti
*xhasimova@beu.edu.az*

**XÜLASƏ**

Hal- hazırda istehsal və ticarətin rəqəmsallaşdırılması, süni intellektdən geniş istifadə, iqtisadiyyatın əksər sahələrində dijital texnologiyaların tətbiqi və rəqəmsal iqtisadiyyatın qurulması ən aktual mövzulardan biridir. Müasir texnoloji infrastruktur rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın əsasını təşkil edir. Dünyada informasiya və kommunikasiya texnologiyaları hər gün daha da sürətlə inkişaf edərək iqtisadiyyatın əsas təkanverici qüvvələrindən biri hesab edilir. İnnovasiya və İKT-nin inkişafını özündə cəmləşdirən elektron hökumət, elektron xidmətlər və elektron ticarət – bütün bunlar rəqəmsal iqtisadiyyatın əsasını təşkil edən hissələrdir. Bu məqalədə İKT-nin rəqəmsal iqtisadiyyatın inkişafında və formalaşmasında rolu tədqiq edilmişdir.

**Açar sözlər:** İKT, rəqəmsal iqtisadiyyat, rəqəmsal texnologiyalar, elektron ticarət, sosial ticarət

**THE İMPACT OF İNFORMATİON AND COMMUNİCATİON TECHNOLOGİES ON THE DEVELOPMENT AND FORMATİON OF THE DİGİTAL ECONOMY İN AZERBAİJAN**

**ABSTRACT**

Today, the digitalization of production and commerce, the widespread use of artificial intelligence, the application of digital technologies in most sectors of the economy and the establishment of a digital economy are among the most discussed issues. Modern technological infrastructure is the basis of digitalization and the digital economy. Information and communication technologies are one of the main driving forces of the economy in the world, developing more and more rapidly every day. E-government, e-services and e-commerce, which combine innovation and ICT development, are all components of the digital economy. This study examines the role of ICT in the development and formation of the digital economy.

**Key words**: ICT, digital economy, digital technologies, e-commerce, social commerce.

**ВЛИЯНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ НА РАЗВИТИЕ И ФОРМИРОВАНИЕ ЦИФРОВОЙ ЭКОНОМИКИ В АЗЕРБАЙДЖАНЕ**

**РЕЗЮМЕ**

В настоящее время цифровизация производства и торговли, широкое использование искусственного интеллекта, применение цифровых технологий в большинстве отраслей экономики и становление цифровой экономики являются одними из наиболее актуальных вопросов.Современная технологическая инфраструктура является основой цифровизации и цифровой экономики.В мире информационные и коммуникационные технологии с каждым днем развиваются все быстрее и считаются одной из главных движущих сил экономики.Электронное правительство, электронные услуги и электронная коммерция, сочетающие в себе инновации и развитие ИКТ, — все это компоненты цифровой экономики.В данной статье рассматривается роль ИКТ в развитии и становлении цифровой экономики.

**Ключевые слова:** ИКТ, цифровая экономика, цифровые технологии, электронная коммерция, социальная коммерция.

[1] Bu məqalə 26-27 noyabr 2021- ci il tarixində keçirilən II Beynəlxalq Elm vəTexnologiya Konfransındakı məruzəmin genişləndirilmiş formasıdır.

## Giriş

Elektron ticarət - informasiya texnologiyalarından istifadə etməklə əmtəə ticarətinin və ona bağlı xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür. Elektron ticarət anlayışı keçən əsrin 80-ci illərində meydana gəlsə də ilk dəfə internet vasitəsilə alqı-satqı 1995-ci ilə təsadüf edib.Ölkədə informasiya-kommunikasiya texnologiyaları nə qədər yaxşı inkişaf edirsə ölkə iqtisadiyyatı da bir o qədər yaxşı inkişaf edir, yüksək göstəricilərə malik olur. İKT sektoruna telekommunikasiya sənayesi də daxil olmaqla, genişçeşidli istehsal və xidmət sektorları daxildir.İKT biznes subyektləri və istehlakçılar arasında məlumat mübadiləsinə şərait yaradaraq, dövlətin və iqtisadiyyatın inkişafında dəstəkləyici rola malik olur. İKT sektorunun təsir sahələrindən biri isə ticarət sahəsidir. Hansı ki, burada elektron xidmətləri tətbiq edərək insanların səmərəli üsulla alqı- satqı etməsinə şərait yaratmaq olar. Pandemiya ilə əlaqəli olaraq qarantin şəraitində olmağımız bir daha e-ticarət mövzusunun aktual olduğunu gündəmə gətirdi. nternetin təsiri ilə insan fəaliyyətinin bütün sahələrində olduğu kimi, iqtisadi sahədə də köklü dəyişikliklər baş verir, yeni münasibətlər və reallıqlar meydana çıxır. Bu qlobal şəbəkə sayəsində milyonlarla insanın əmək fəaliyyətinin şərtləri və məzmunu dəyişir, ən mürəkkəb istehsal məsələlərinin həlli sürətlənir, iqtisadi idarəetmənin effektivliyi əhəmiyyətli dərəcədə yüksəlir. Yeni peşələr və iş yerləri, istehsal sahələri meydana gəlir, ənənəvi sahələrin fəaliyyət prinsipləri dəyişir.

İKT sahəsi hazırda dünya iqtisadiyyatında ən çox inkişaf etmiş sahələrdən biri olmaqla yanaşı gəlir gətirən sahələrdən biridir. İKT həm də davamlı iqtisadi inkişafı əldə etmək üçün son dərəcə mühüm vasitə hesab olunur. Hətta bir sıra inkişaf etmiş ölkələrin büdcə gəlirlərinin böyük hissəsi bu sektordan əldə olunan vəsaitlərin hesabına formalaşır. Bu səbəbdən Azərbaycan hökuməti İKT sektorunun inkişaf etdirilməsi ilə yanaşı, həm də iqtisadiyyatın bir çox sahələrində yeni və qabaqcıl texnologiyaların tətbiq olunmasına maraq göstərir.

Son illər İKT sektorunda gəlir artımı illik 30-35 faizə çatıb. Qeyri-neft sektorunda İKT sahəsi tikintidən sonra vergi gəlirləri gətirən ikinci ən geniş sahədir. Qeyd olunan amillər bir daha təsdiq edir ki, iqtisadi proseslərinin müasir İKT əsasında idarə edilməsi istər qlobal hadisədir (1).

## İnformasiya Kommunikasiya Texnologiyaları və Rəqəmsal İqtisadiyyat

Rəqəmsal iqtisadiyyat dedikdə düşüncəmizə internet vasitəsilə idarə olunan iqtisadiyyat gəlsə də əslində, rəqəmsal iqtisadiyyat çox daha geniş anlayışdır. Rəqəmsal iqtisadiyyat insanlar, müəssisələr, cihazlar, məlumatlar və proseslər arasında kompüter texnologiyalarına əsaslanan iqtisadi fəaliyyətdir (1). Rəqəmsal iqtisadiyyatın elekton biznes, elektron biznes infrastrukturu və elektron ticarət olmaqla 3 əsas komponenti var. Rəqəmsal iqtisadiyyatın özünəməxsus bir sıra xüsusiyyətləri var.

Rəqəmsal iqtisadiyyat biznesin təhlükəsizliyini, işçiləri və ortaqları bir-biri ilə əlaqələndirərək daha yaxşı ünsiyyətə kömək edir.

Rəqəmsal iqtisadiyyatın digər bir xüsusiyyəti olan bölüşdürmə prosesi vasitəsilə bir şirkətin ehtiyacı digəri tərəfindən yerinə yetirilir, yəni xidmətlərin alınması ilə yanaşı ehtiyac duyulan şeylərin də alınması prosesidir. Şirkətlər müştərilərin tələblərinə uyğun fərdi məhsullar hazırlamaq üçün çalışır. Texnologiyanın inkişafı ilə, obyektlər siqnallar yaradır, bu siqnallar ölçülə, izlənə və təhlil edilə bilər ki, bu da daha yaxşı qərar qəbul etməyə imkan yaradır proseslərin rəqəmsal və izlənilə bilən olmasını yaradır.

Bütün bu proseslərin irəlləməsi üçün informasiya kommunikasiya texnologiyalaraının rəqəqmsal iqtisadiyyatda tətbiqi bir daha vacibliyini sübut edir.

İKT sektoruna telekommunikasiya sənayesi, genişçeşidli istehsal və xidmət sektorları da daxildir. İKT bir növ biznes subyektləri və istehlakçılar arasında kommunikasiya və məlumat mübadiləsinə şərait yaratmaqla rəqəmsal iqtisadiyyatın formalaşmasında və inkişafında böyük rol oynayır. İKT-nin geniş miqyasda tətbiq edilməsi yeni iş yerlərinin yaradılmasına və məhsuldarlığın artmasına ciddi təsir göstərir. Beynəlxalq təcrübəyə əsasən demək olar ki, İKT-də yaradılan hər bir yeni iş yeri iqtisadiyyatın digər sektorlarında 2-4 yeni iş yerinin yaranmasına təkan verir. Qeyd etmək lazımdır ki, qabaqcıl texnologiyalardan istifadə edən biznes subyektləri daha sürətlə inkişaf edir (1).

Elektron-kommersiya texnologiyalarının biznes subyektlərində və bir sıra istehsal sahələrində tətbiqi və inkişaf etdirilməsi günün tələbidir.

**Şəkil 1.** İKT-nin tətbiqində artımı. (2001-2018)




**Mənbə:** ICT Development trends and approaches for Digital Transformation (2019). https://www.itu.int/itu-d/sites/asiapacific.

## Dünyada elektron ticarətin inkişaf dinamikası

Bazarın standart mallarla təchizi problemi artıq həll olunduğu təqdirdə, yeni texnologiyalar istehlakçılara müxtəlif alıcılıq qabiliyyətli maksimal istehlakçılar auditoriyasına daxil olmaq, həmçinin onlara öz sifarişlərini yoxlanılmış üsullarla idarəetmə sisteminə daxil etmək imkanı verir. E-ticarət texnologiyası təkrar istehsalın bütün dövriyyəsinin paylama-mübadilə sahəsinə əhəmiyyətli dəyişikliklər gətirir. E-ticarətin səciyyəvi xüsusiyyətlərindən biri də budur ki, o, alıcı ilə satıcı arasındakı bir çox əlaqələrin internet vasitəsilə həyata keçirilməsinə imkan verir. Bundan əlavə, elektron biznes iqtisadi mühiti əhatə edən problemlərin həllinin yeni üsullarını təqdim edir.

Ümumiyyətlə, İKT infrastrukturunun formalaşması, müasir elektron ödəniş sistemlərinin inkişaf etdirilməsi, elektron xidmətlərinin qlobal bazarına çıxışını, elektron-ticarət texnologiyalarının perspektiv inkişafını, geniş tətbiqini təmin edir.

Bakıdakı Silverkey Technologies (http://www.silverkey.az/Services.az.html) şirkətinin ölkədə "GoldenPay" ödəmə sistemini tətbiq etməsi Azərbaycanda elektron-ticarətin (e-commerce) inkişafında əsas addımdır. "GoldenPay" Visa İnternational və Master Card beynəlxalq ödəmə sistemləri tərəfindən sertifikatlaşdırılmışdır, təhlükəsizlik sistemləri isə "3D secure" dünya standartları tələblərinə cavab verir (Əliyev, 2019).

Ümumiyyətlə, istehlakçılar yeni texnologiyalara uyğunlaşmaqdan məmnundurlar; çünki yeni texnologiyalar onlar üçün işləri çox asan və daha sürətli etməyə imkan verir.

Mağazaya getdiyiniz zaman nə seçəcəyinizi bilmirsinizsə, məlumatlı və mehriban bir satıcının sizinlə əlaqə saxlamasını və sizə kömək etməsini gözləyirsiniz. Satış məsləhətçisi ehtiyaclarınız barədə soruşur və buna uyğun olaraq satınalma prosesində sizə rəhbərlik edir. Onlayn alıcıların da belə dəstəyə ehtiyacı var. Oflayn ticarətin üstünlüyü ondan ibarətdir ki, o, müştərini və onun vəziyyətini dərhal başa düşərək, hazırda aktual olan məhsulları tövsiyə etmək imkanı verir. Müqayisə üçün, onlayn alış-veriş təcrübəsi, ümumiyyətlə, keçmişdə ilişib qalmış və köhnəlmiş görünür. Tövsiyələr və reklamlar arxa görünüş güzgüsündə müştərinin dar görünüşünə əsaslanır.

Onlayn alıcılar qərar qəbul etmə prosesində kömək və məsləhət axtarırlar. Qlobal idarəetmə konsaltinq və peşəkar xidmətlər şirkəti olan Accenture tərəfindən istehlakçı sorğusuna əsasən, respondentlərin 39%-i həddən artıq çox seçim qarşısında qaldıqları üçün biznes saytını tərk edib məhsulu başqa yerdən satın alırlar.

Onlayn ticarət zamanı sizə çox vaxt məhsulun çox geniş seçimi və zəif filtrləmə qalır və bu prosesdə sizə heç nə kömək etmir.Rəqəmsal məsləhətçilər, əksinə, onlayn ticarət edənlərin satınalma səyahətində şəxsi məsləhətlərin olmamasını kompensasiya etməyi hədəfləyirlər.Müştərilərin ehtiyaclarını təhlil etdikdən sonra, bu həllər real vaxtda ən uyğun məhsulları müəyyən etmək və tövsiyə etmək üçün nəticə alqoritmlərini və maşın öyrənmələrini tətbiq edir. Bununla belə, onlar həmçinin istehlakçılara ehtiyacları üçün ən yaxşı məhsulu tapmaqda kömək etmək üçün kömək və məsləhətlər verirlər.

Texnologiya bir çox qarşılıqlı əlaqəni avtomatlaşdırsa da, söhbətlər hələ də ticarətin əsas elementidir. Ən dolayı və şəxsi olmayan formada belə biznes davamlı söhbətlər silsiləsi olur. Uzun müddətdir e-ticarət liderləri; onlar birbaşa, təbii və şəxsi söhbətləri onlayn alış-verişlərinə daxil etməyin yollarını axtarırlar.Bu, onlayn alış-veriş təcrübəsində çatışmayan vacib elementdir. Süni intellekt, chatbotlar onlayn interaktiv ticarətin baş tutmasında mühüm ünsürlərdəndir. Botlar itirilmiş yaxınlığı bərpa etməyə və oflayn alış-verişdə istifadə etdiyimiz söhbətləri canlandırmağa hazırlaşır. Təbii ki, rəqəmsal ticarət hələ bu dəyişikliyin ilkin mərhələsindədir.

"Real-vaxt rejimində fərdiləşdirmə" hər səfərdə hər bir müştəriyə fərqli və fərdiləşdirilmiş təcrübə təqdim etməyin bir yoludur. "Real vaxt rejimində fərdiləşdirmə" mesajları dərhal identifikasiya üçün alış vərdişləri, üstünlüklər, demoqrafik məlumatlar və coğrafi yer kimi müxtəlif parametrlərdən istifadə edir. Məlumatları düzgün əldə etmək, üstünlükləri başa düşmək və oxşar müştərilərin seçimlərinə əsaslanaraq dəqiq nəticələr çıxarmaq üçün məlumatların öyrənilməsi və maşın öyrənilməsini tələb edir (5).

Məsələn, onlayn səyahət sifariş saytı qarşıdan gələn tətil planlarınızdan xəbərdar olsa da, şəhərdən kənar konsertə bilet aldığınızı bilmir. Müştərinin bu təcrid olunmuş görünüşü müştərinin keçmiş ehtiyaclarını, axtarışlarını və ya satınalmalarını əks etdirən lotereya kimi reklam və tövsiyələrin təqdimatı ilə nəticələnir. Əslində, tövsiyə və reklam alqoritmlərində çoxlu təxminlər var. Proqnozlaşdırılan analitika və maşın öyrənməsi tam optimallaşdırılmış və yüksək fərdiləşdirilmiş təcrübələr yaradaraq məhsul tövsiyələrini növbəti səviyyəyə qaldıra bilər. Müştərilərin etdiklərinin vahid görünüşünü yaratmaq üçün müxtəlif məlumat nöqtələrini qarışdırmaq pərakəndə satışçılara real niyyəti və həqiqi, cari marağı ələ keçirməyə imkan verir. Bu, pərakəndə satış şirkətlərinə hər hansı bir müştərinin gələcək hərəkətlərini və ehtiyaclarını qabaqcadan görməyə kömək edəcək daha dərin kontekstual baxış təqdim edəcək.

Səs ticarəti, son istifadəçilərin avadanlıqdan (siçan və klaviatura kimi) asılılığını azaltmaq üçün səs tanıma texnologiyasından istifadə edərək, onlayn məhsul tapmaq və satın almaq üçün səs əmrlərindən istifadə etməyə imkan verir. Bu üsuldan tarixdə ilk dəfə danışıq tanıma texnologiyası, IBM mühəndisi William C. Derschin "Ayaqqabı qutusu" adlı nitq tanıma sistemini yaratdığı 1961-ci ildən başlamışdır. 2011-ci ildə səsli köməkçi Siri iPhone'ların istifadəsinə verildi və 2012-ci ildə Android öz səs köməkçisini istifadəyə verdi. Son 5 ildə Amazon Echo və Google Home kimi səs cihazlarında böyük bir artım oldu və səs ticarətini sınamaq istəyən istehlakçılarda paralel bir sıçrayışa səbəb oldu.

Səslə işləyən cihazlar musiqi dinləmək, istiliyin yoxlanılması, onlayn məlumat axtarışı, yemək sifariş etmək və onlayn ticarət etmək kimi gündəlik fəaliyyətlər kimi müxtəlif məqsədlər üçün istifadə olunur. Ticarət səs texnologiyası üçün bu qədər böyük bir fürsət olduğu üçün bir çox şirkət müştərilərinin onlayn təcrübələrini yaxşılaşdırmaq üçün səsli ticarətdən artıq istifadə etmişlər. Səs ticarətinin ən böyük üstünlüyü istifadənin asan olması, günün istənilən vaxtında istifadə edilə bilən olması, alış veriş təcrübələrinin unikallaşdırılan olmasıdır (5).

Sosial alıcılar alış-verişi sosial təcrübə kimi sevirlər və alış-verişə dostları və ailəsi ilə əlaqə yaratmaq şansı kimi baxırlar. Onlar üçün ticarət təkcə alış-verişdən ibarət deyil. Sosiallaşma həmişə alış-verişin mühüm funksiyası olub. İnsanlar dostları ilə alış-verişə daha çox vaxt və pul sərf edirlər. Araşdırmalar göstərib ki, hətta dostları ilə alış-veriş edən qənaətcil insanlar təkbaşına alış-veriş etdiklərindən daha çox pul xərcləyirlər. Bu zaman isə yeni bir anlayış- "sosial ticarət" anlayışı öz yerini tutmağa başlayır. Amazon və eBay artıq müxtəlif sosial funksiyaları öz platformalarına inteqrasiya edib. Bundan əlavə, Polyvore, Fab, Wanelo, OpenSky, Fancy və ModCloth kimi sosial ticarət saytları istifadəçilərə tövsiyələr almağa və məhsul kolleksiyalarını oxşar zövqə malik istifadəçilərlə paylaşmağa imkan verir.

Sosial ticarət sosial media və e-ticarəti birləşdirir. Pinterest, Instagram, Twitter, Snapchat və Facebook xidmətlərini pul qazanmağın yeni yollarını tapmaq məqsədi ilə platformalarına müxtəlif e-ticarət funksiyaları əlavə ediblər. Lakin bu sosial media platformalarının əksəriyyəti öz potensiallarına çatmadığı üçün səylərini dayandırmışdır. Sosial media platformalarının yaşadığı bu vəziyyətin iki əsas səbəbi var. Əvvəla, istifadəçilər sosial şəbəkələrdən əşya almaq üçün deyil, sosial olmaq üçün istifadə edirlər. İkincisi, istifadəçilər təhlükəsizlik baxımından sosial mediada əşyalar almaqdan çəkinirlər. Beynəlxalq audit, vergi, məsləhət, korporativ risk və korporativ maliyyə xidmətləri şirkəti Deloitte tərəfindən aparılan araşdırmaya görə, insanların 47%-i məhsulu sosial media lentlərində gördükdən sonra aldığını bildirib. Ancaq araşdırmaya görə, bu insanların yalnız 20%-i bu alış-verişi sosial media platforması vasitəsilə edib.

Bütün bunlara baxmayaraq, sosial şəbəkələr sosial ticarətdən əl çəkməyib. Sosial media böyük potensiala malikdir və zaman keçdikcə maarifləndirmə və trafiki idarə etmək üçün ideal bir kanal olduğunu sübut etmişdir. Inbound marketinq və satış platforması olan HubSpot-un araşdırmasına görə, respondentlərin 81%-i dostlarının yazılarının onların satın alma qərarlarına birbaşa təsir etdiyini bildirib.

Onlayn ticarət daha sürətli və daha praktik hala gəldikcə, natamam qavrayış təcrübəsi istehlakçıların onlayn əşyalar almasına mane olan ilk beş problemdən biri kimi önə çıxır. Məhsulun keyfiyyətini, ölçüsünü, erqonomikliyini və uyğunluğunu ölçmək öz-özünə asanlaşdırılır. Onlayn müştərilər satın almadan əvvəl məhsul haqqında daha çox öyrənmək istədikləri üçün iki ölçülü məhsul təsvirləri kifayət deyil. Buna görə də, bu nöqtədə üç ölçülü texnologiya işə düşür. Çünki bu texnologiya pərakəndə satıcılara hər tərəfdən yoxlanılan

məhsulların fiziki qarşılıqlı təsirini təkrarlamağa imkan verir (Ibrahimova, Suleymanov, Rahmanov, 2020).

Artırılmış reallıq və virtual reallıq hələ əsas deyil, çünki heç kim artırılmış reallıq və ya virtual reallıq eynəklərindən istifadə edən məhsullar almır. Buna baxmayaraq, bu iki texnologiya yavaş-yavaş, lakin şübhəsiz ki, bütün dünyada alış-veriş təcrübələrinə inteqrasiya olunur. Pərakəndə şirkətlər və brendlər üçün iki ölçülü məhsulların təsvirlərini üçölçülüyə çevirmək asanlaşdıqca, bu texnologiyalar da onlayn alış-verişdə əsas istiqamətə çevriləcək. Beləliklə, məhsulun vizuallaşdırılması dilemması həll ediləcək və onlayn alıcılar virtual məhsulları öz real mühitlərində görə biləcəklər.

**Azərbaycanda elektron ticarətin formalaşması və inkişafı**

Son dövrlər ölkəmizdə də insanlar arasında elektron ticarətə marağın artması nəzərə çarpır. Bunun təsdiqi olaraq deyə bilərik ki, 2020- ci ildə Azərbaycanda elektron ticarətin həcmi əvvəlki ilə nəzərən 91% artaraq 3,5 milyard manat təşkil edib. Habelə Azərbaycanda son illər elektron ticarətin təşviqi istiqamətində bir sıra tədbirlər həyata keçirilməsinə baxamayaraq, hələ də ənənəvi ticarət növünə üstünlük verən insanların sayı ilə elektron ticarətə üz tutanların sayında kəskin fərq olduğu danılmazdır. Elektron ticarətə üstünlük verən alıcıların əksəriyyəti alış-veriş edərkən əsasən, yerli deyil, tanınmış xarici elektron ticarət platformalarından sifarişlər verirlər. Bundan dolayı, son dövrlər ölkədə daxili bazarın inkişaf etdirilməsi məqsədilə elektron ticarətlə məşğul olanların ƏDV-dən azad edilməsi ilə bağlı müzakirələr aparılır.

2021- ci ilin statistikasına görə dünyada pərakəndə satış təxminən 25 trilyon dollar həcmindədir. Qlobal e-ticarətə baxdığımızda dünya miqyasında hər 5 məhsuldan 1-i ölkələr arasında gerçəkləşir. 2021- ci ilin statistikasına görə UNCTAD B2C elektron kommersiya indeksində Azərbaycan 144 ölkə arasında 68-ci yerdədir. Dünyada elektron ticarətin həcmi 2020- ci ildə təqribən 4,3 trilyon dollar olduğu halda 2024-cü ildə 6,4 trilyon dollara çatacaq. Azərbaycanda elektron ticarətin artım sürəti ildə 2 dəfəyə yaxın olsa da, pərakəndə ticarət dövriyyəsində payı 0,4- 0,5 faizdir, halbuki ABŞ və Avropa ölkələrində bu göstərici 10-15%-ə çatır.

**Şəkil 2.** Dünyada illər üzrə e- ticarətin həcmi və inkişaf tempi.




**Mənbə:** https://www.trade.gov/ecommerce-sales-size-forecast .2022

İnternetin hazırkı yayılma səviyyəsində Azərbaycanda pərakəndə satışlarda elektron ticarətin payı dünya trendinə əsasən təqribən 7% ola bilər. Bunun üçün e- ticarət infrastrukturunun genişləndirilməsi, elektron ticarət platformaları üçün minimal təhlükəsizlik

tələblərinin müəyyən edilməsi və qeyri-rezident vergi ödəyicilərinə münasibətdə vergitutma mexanizminin təkmilləşdirilməsi nəzərdə tutulur.

Azərbaycanda "Elektron ticarət haqqında" Qanun 2005-ci ildə qəbul olunsa da, bu sahənin ilkin göstəriciləri yalnız 2008-ci ildə özünü göstərməyə başlamışdır. Bunun ən əsas səbəblərindən biri internet üzərində ödəmə sisteminin olmaması olmuşdur. İlk milli onlayn ödəniş sistemi isə 2008-ci ildə "GoldenPay" sistem ilə işləyən "hesab.az" internet ödəmə portalı fəaliyyətə başlamışdır. Eyni zamanda "million.az" internet saytı vasitəsi ilə e-ödəniş xidmətləri həyata keçirilir. Həmçinin Azərbaycanda bir çox şirkətlərdə "GoldenPay" sistemi tətbiq olunur. Hazırda bu hər iki portal vasitəsi ilə şəbəkə marketinq, ödəmə kartları, elektron pul kisəsi, mobil və stasionar telefonlar, kommunal, kabel TV, bank, sığorta, e-mağaza və s. xidmətlər üzrə ödənişlərin həyata keçirilməsi mümkündür. Bundan əlavə, son dövrlər e-manat və e-pul kimi elektron ödəniş xidmətləri də istehlakçılara təklif edilir. E-ticarətin inkişafının "Elektron hökumət" Dövlət Proqramının prioritetlərindən biri olması, internet istifadəçilərinin sayının artması, bank kartlarının sayının çoxalması, ƏDV geri al portalı vasitəsi ilə ödənmiş ƏDV- nin onlayn ödənişlərdə nəğd ödənişə nisbətən daha yüksək faizlə geri qaytarılması, nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı nəzərdə tutulan tədbirlər, internet vasitəsi ilə ticarət etməyə meylli olan gənc əhalinin sayının çoxluğu Azərbaycanda e-ticarət həcmini artırmışdır. Eyni zamanda qonşu ölkələrin pul vahidlərinin Azərbaycan manatına nisbətən dəyərsizləşməsi xüsusi ilə Türkiyədən elektron qaydada edilən sifarişlərin həcmini və bu xidmətlə məşğul olan şirkətlərin sayını artırmışdır. Azərbaycanda bütün ölkə üzrə vahid e-ödəniş məkanının zərurəti nəzərə alınaraq Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılmışdır.

**Nəticə**

Hal-hazırda texnologiya şirkətlərin uyğunlaşa biləcəyindən daha sürətli inkişaf etməkdədir. Belə olduqda, texnoloji dəyişikliyə daha çox uyğunlaşan şirkətlər rəqiblərindən daha çox seçilir. Belə bir mühitdə müştərilərə daha yaxşı məhsullar təqdim etmək, oflayn satış təcrübələrini onlayn qaydada həyata keçirmək fərdiləşdirilə bilən seçimlər və daha çox kanal və ya əlaqə nöqtələri təqdim etmək rəqiblərdən fərqlənmək üçün əsas işlərdən biridir (Suleymanov, Ibrahimova, 2019) .

Elektron ticarətin ilk günlərində insanlar sifarişlərinin gəlməsini həftələrlə gözləməyə hazır idilər. Ancaq e-ticarətin inkişafı ilə bu anlayış dəyişdi və sürətli çatdırılma e-ticarətdə böyük əhəmiyyət qazandı. Və son nöqtədə "günlük çatdırılma" xidmətlərindən danışılmağa başladı. Eyni gündə çatdırılma və dron çatdırılması hər gün daha cəlbedici olur, çünki çatdırılma sürəti müştərinin onlayn məhsul almaq qərarına təsir edən ən mühüm amillərdən biridir. İstehlakçıların sorğusuna əsasən, istehlakçıların 33%-i onlayn sifarişlərinin dron vasitəsilə çatdırılmasında maraqlıdır. Bununla belə, sifariş çatdırılmasının avtomatlaşdırılması pərakəndə şirkətlərin gələcəkdə fərqlənmək üçün istifadə edə biləcəyi ən yaxşı variantlardan biri ola bilər. Bundan başqa məhsulun bir ünvandan digərinə çatdırılması üçün dronlardan da istifadə düşünülür. Əlbəttə ki, pərakəndə satış şirkətləri və istehlakçılar dronların potensialından həyəcanlanır, halbuki bir çox ölkələrdə tənzimləyicilər bu barədə daha az həyəcanlanırlar. Çünki pilotsuz təyyarələrin istismarında hələ də həllini gözləyən bir çox problemlər var. Təhlükəsizlik problemləri, oğurluq və zədələnmələr və çatmaq çətin olan ərazilərdə çatdırılma hələ də dronlarla bağlı cavabsız qalan suallardan bəziləridir. Təbii ki, insanların davamlı olaraq havada uçan dronlara necə reaksiya verəcəyi başqa vacib sualdır. Bütün bunlar informasiya kommunikasiya texnologiyalarının elektron ticarətə inteqrasiyasının bariz nümunəsidir (6).

Rəqəmsal iqtisadiyyatın formalaşdırılması və inkişafına nail olmaq üçün bu istiqamətdə müasir tələblərə cavab verən effektiv tənzimləmə mexanizminin yaradılmasını tələb edir. Elektron xidmətlərin göstərilməsi və nağdsız əməliyyatların aparılması üçün elektron ödəniş infrastrukturunun daha geniş kütlələrə çatdırmalı, elektron ödənişlərin iştirakçısı olan subyektlərin milli ödəniş sisteminin infrastrukturuna inteqrasiyası artırılmalı və dijital iqtisadiyyata sürətli uyğulaşdırılması təmin edilməlidir. Rəqəmsal iqtisadiyyatda ticarət fəaliyyətinin bütün mərhələlərinin elektronlaşdırılması şəffaflığa şərait yaratmaqla, bu sahədə vergi nəzarətinin güclənməsinə, "gizli" iqtisadiyyatının qarşısının alınmasına səbəb olur. Dünya təcrübəsində geniş müştəri kütləsinin elektron ödəniş sisteminə keçidini təmin etmək məqsədilə həvəsləndirici tədbirlərlə yanaşı, nağd ödənişlər üzrə maksimum hədd müəyyən edilməklə onların məhdudlaşdırılması, vergi və rüsumların ödənilməsi zamanı hesablaşmaların yalnız nağdsız qaydada həyata keçirilməsi kimi müxtəlif metodlardan istifadə olunur (1).

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi.
2. Suleymanov, E., & Ibrahimova, K. (2018). Azərbaycan timsalında innovasiyanin iqtisadi inkişafa təsiri.(The Impact of Innovation on Economic Development in Keys of Azerbaijan). In *The Impact of Innovation on Economic Development in Keys of Azerbaijan)(October 2018). October 2018 Conference: The Sustainable Development of Economy and Administration: problems and perspectives International Conference Baku*.
3. Ibrahimova, K., Suleymanov, E., & Rahmanov, F. (2020). The Digital Economy and the Impact of Its Formation on Economic Development. *Academic Journal of Economic Studies*, *6*(3), 105-108.
4. Əlövsət ƏLİYEV,Elektron-kommersiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsi günün tələbidir. Azərbaycan.-2009.-15avqust.-S.3. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_avqust2009/88351.htm
5. Suleymanov, E., & Ibrahimova, K. (2018, November). Elektron ticarətin Azərbaycanda inkişaf perspektivləri (Perspectives of E-Commerce Development in Azerbaijan). In *1st International Science and Engineering Conference in Baku, Azerbaijan* (pp. 29-30).
6. https://pazarlamasyon.com/e-ticaretin-gelecegine-damga-vuracak-7-teknoloji-ve-strateji/
7. https://www.actualidadecommerce.com/az/s%C9%99sli-ticar%C9%99t-v%C9%99-onun-onlayn-ticar%C9%99t-%C3%BC%C3%A7%C3%BCn-n%C9%99tic%C9%99l%C9%99ri/
8. Dünya Bankının "İnformasiya və kommunikasiya sektorunun inkişafa təsiri – 2009-cu il" hesabatı.
9. Rahmanov, F., Suleymanov, E., & Ibrahimova, K. (2020). Azerbaycan'da Kamu Hizmet Kalitesinin Artırılmasında E-Devlet Innovativ Teknoloji Kullanımının Gelişimi Development of E-State and Innovative Technology in Improving Public Service Quality in Azerbaijan. *ON EURASIAN ECONOMIES 2020*, 280.
10. Azərbaycan Respublikasının "Elektron ticarət haqqında" Qanunu.
11. Taxation of Electronic Commerce: A Developing Problem. Taxation Aspects of Electronic Commerce: Publication of reports and technical papers. OECD March 2001.
12. Electronic Commerce and the Challenge for Tax Administration (www.wto.org).
13. International Telecommunication Union https://www.itu.int/itu-d/sites/asiapacific.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2021. Volume 5, Number 2* *Pages 144-149*

***UOT:330.35***

# THE IMPACT OF GOVERNMENT SPENDING ON ECONOMIC GROWTH

**ISKANDAROVA LEYLA**
Azerbaijan State University of Economics
International School of Economics/Accounting and auditing
*iskandarova2000@gmail.com*

**SALIMLI NIGAR**
Azerbaijan State University of Economics
International School of Economics/Accounting and auditing
*nigarrsalimli@gmail.com*
Baku,Azerbaijan

**ABSTRACT**

This paper investigates the relationship between the government expenditure and economic growth in the world. It discusses some arguments, reviews the international evidenceshows examples that how government spending affected national economic output, and analyzes the economic consequences. The main aim of this article is that toshow a positive and negative effect of the government expenditures on public goods on growth.The specific objectives of the study were to: illustrate the relationship between the components of government expenditure and economic growth; examine the effects of government expenditure on production and growth rate; analyze the effects of government expenditure reforms on economic growth with graphs; and some economic arguments and theories. The government expenditure that we explained in our paper was included spending on.

**Key words:**governmentexpenditure,economic growth.

**DÖVLƏT XƏRCLƏRİNİN İQTİSADİ ARTIMA TƏSİRİ**

**XÜLASƏ**

Bu sənəd dövlət ərcləri ilə dünyadakı iqtisadi artım arasındakı əlaqəni araşdırır. Bəzi arqumentləri müzakirə edir, beynəlxalq dəlilləri nəzərdən keçirir, dövlət xərclərinin milli iqtisadi məhsula necətəsir göstərdiyini göstərir və iqtisadi nəticələri təhlil edir. Bu məqalənin əsas məqsədi dövlət maliyyələrinə dövlət xərclərinin böyüməyə müsbət və mənfi təsirini göstərməkdir. Tədqiqatın xüsusi məqsədləri bunlardır: dövlət xərcləri və iqtisadi böyümə komponentləri arasındakı əlaqəni göstərmək; dövlət xərclərinin istehsal və böyümə sürətinə təsirlərini araşdırmaq; dövlət xərcləri islahatlarının iqtisadi böyüməyə təsirlərini qrafiklərlə təhlil etmək; və bəzi iqtisadi dəlillər və nəzəriyyələr. Məqaləmizdə izah etdiyimiz dövlət xərcləri, xərclərə də daxil edildi.

**Açar sözlər:** dövlət xərcləri, iqtisadi böyümə.

**ВЛИЯНИЕ ГОСУДАРСТВЕННЫХ РАСХОДОВ НА ЭКОНОМИЧЕСКИЙ РОСТ**

**РЕЗЮМЕ**

В этой статье исследуется взаимосвязь между государственными расходами и экономическим ростом в мире. В нем обсуждаются некоторые аргументы, анализируются международные данные, демонстрируются примеры того, как государственные расходы влияют на объем производства в национальной экономике, а также анализируются экономические последствия. Основная цель данной статьи - показать положительное и отрицательное влияние государственных расходов на общественные блага на рост. Конкретные цели исследования заключались в следующем: проиллюстрировать взаимосвязь между компонентами государствен-ных расходов и экономического роста; изучить влияние государственных расходов на производство и темпы роста; анализировать влияние реформ государственных расходов на экономический рост с помощью графиков; и некоторые экономические аргументы и теории. Государственные расходы, которые мы объяснили в нашем документе, были включены в расходы.

**Ключевые слова:** государственные расходы, экономический рост.

**Introduction**

Over the years, government expenditure also referred to us as government spending has been identified as a main tool in improving the standard of living of citizens in a country. The role of any government is to supply goods and services to the public to achieve different economic and social objectives. The efficiency with which governments provide these goods and services is vital to the macroeconomic stabilization, economic process. But what is the connection between government spending and economic growth? This is often a matter of research as current theoretical and empirical literatures do not offer a conclusive argument. Policymakers are divided on whether government expansion helps or hinders economic growth. Advocates of larger government argue that government programs provide valuable "public goods" such like education and infrastructure. They also claim that increasein government spending can boost economic growth .

Proponents of smaller government have anotherview. They explain that higher spending shrinkseconomic growth by transferring additional resources from the productive sector of the economy to government, which uses them less efficiently.

**Methods of research**

The terms that require defining are the two kinds of government expenditure: transfers, and purchases of goods and services. Transfers: One thing governments can do with the tax income they collect is transfer it to people within the economy. Examples of transfer programs include Social Security, Transitional Assistance to Needy Families (welfare), and Unemployment Insurance.

Purchases of Goods and Services: The second way governments can spend tax income is by purchasing goods and services that are then used to produce some kind of output. Governments purchase guns, bullets, tanks, and uniforms, as well as the services of soldiers, to provide national defense. Governments buy asphalt, concrete, steel, and so on, and hire construction workers and contractors, to establish roads, dams, railways, museums, and more. [2],[5]




The bar graph shows stacked social expenditure figures for various country groups. The different color segments in the bars illustrate different components of social spending. The sizes reflect spending as share of GDP.

As we can see, the group of 'advanced economies' demonstrates a much larger share of national income specifically to social transfers. This contrasts with the figures from sub-Saharan Africa, where social spending is much lower, and where transfers play a less main role.We can indicate that governments in high-income country spend more money than governments in low-income countries, both in per capita terms, and as share of their national incomes.[4]

Lets discuss in the case of Azerbaijan.

